**Hacı Əli Sobulu**

# Zəngilan səhiyyəsinin «sultanı»

**Bakı - 2021**

**Hacı Əli Sobulu,**
**Zəngilan səhiyyəsinin «sultanı»**
Bakı: «Zərdabi Nəşr» MMC, 2021, 96 səh.

Kitabda «Respublikanın əməkdar həkimi» Sultan Musa oğlu Vəliyevin həyat və fəaliyyətindən bəhs olunur.

S $\frac{4705120998 - 24}{0107 - 2021}$ Qrifli nəşr

© Ə.Sobulu, 2021

# Öz söz

«Məni hər zaman bir məsələ düşündürürdü.....Biz kimi,...... tariximiz təhrif olunub, saxtalaşdırılıb ki, bəzən kimliyimizi belə bizə unutdurublar».

**Hacı Əli Sobulu**

Beynini dumanlandıran, ruhunu əzən, rahatlığını əlindən alan, yurdu erməni faşistləri tərəfindən işğal və talan edilən, yağmalanan, mənən əzilən, amma ruhdan düşməyən Hacı Əli Sobulu (Əli Cümşüdlü) kimliyimizi araşdırmaq yanğısı, arzu-niyyəti ilə arxivləri ələk-ələk edir.

Tənəli, istehzalı baxışlarla addımbaşı üzləşən, «qaçqın», «köçkün» ifadələrini həzm edə bilməyən, qüruru sınan, mənəvi əzilən H.Ə.Sobulu Araz boyda göz yaşlarını, dağlar ağırlığında qəm yükünü çiyinlərinə alıb qabaran insan dalğasının ağuşuna atılır. Dərviş kimi həqiqət, ədalət axtarır, sərhədlər aşır, ölkələr dolaşır. Əvvəlcə müqəddəs ocaqlar-Məkkəni ziyarət edir-Tanrıya sığınır....

İtirilmiş torpaqlara əli çatmasa da arxivləri, mənbələri tapır. Səbr, təmkinlə, dözüm və inadkarlıqla, birər-birər sənədləri toplayır. Yuxusuz gecələrin, gərgin araşdırmanın nəticəsi olaraq «Zəngilan əlilləri», «Zəngəzurun Zəngilanlı ziyalıları», «Rusiya işğalları və Zəngilan», «Eşitdiklərim, gördüklərim, düşündüklərim», «Mənim yaşadığım həyat» kitabları işıq üzü görür, ictimaiyyətə, oxuculara çatdırılır. Qeyd edim ki, «Rusiya işğalları və Zəngilan» kitabı Azərbaycan tarixi tədqiqatına həsr olunmuş ən sanballı toplu idi. Kitab məzmünca dolğun, formaca zəngin, tarixi aktuallığı ilə əvəzsizdir, xəritələr, diaqramlar, faktlar, rəqəmlər, sərəncam, müqavilələr mikroskopik və zərgər dəqiqliyi ilə araşdırılmışdır.

«Çar Rusiyası Arazdan şimalda olan torpaqlarımızı ələ keçirtdi Bundan sonra o, Türkiyə və Cənubi Azərbaycandan bu tor-

paqlara yabançı olan bir milləti – hayları köçürməyə başladı....və bu əraziyə ilk qara ləkə düşdü....bu qara ləkə elə sürətlə böyüdü ki,.....burada Ermənistan SSR adlı bir sovet dövləti təşkil olundu....Bu qara ləkə durmadan böyüyür....Bu qara ləkənin duracağı bir zaman olacaqmı?» (H.Ə.Sobulu).

Bu «qara ləkənin» fəsadları çox ağır, acı və ağrılı oldu; ərazimizin və xalqımızı iki yerə şaqqaladılar, Rusiya və İran dövləti iradəmizdən kənar «Gülüstan»[15] (1813-cü il), «Türkmənçay»[16] (1828-ci il) adlı «qara kağız» – müqavilə imzaladılar. Bu «qara ləkəni» ona görə yaratdılar ki, istədikləri zaman aranı qarışdırıb mənfəət götürsünlər. 1905-1907-ci (C.Cabbarlı «1905-ci ildə» pyesində «Atan kazaklardır» – deyərək çarizm siyasətini ifşa etmişdir.) ildə, 1918-ci ildə minlərcə azərbaycanlını (türkü) soyqırıma məruz qoysunlar, sərvətləri ələ keçirsinlər. Yenicə ayaq açan 23 aylıq müstəqil dövləti (1918-1920) işğal eləsinlər, xalqın var dövlətini «kolxoz» adı ilə ələ keçirib talasınlar, özlərini «qolçomaq, mülkədar, bəy, kulak» damğası ilə didərgin salsınlar, həbs edib güllələsinlər, sürgünə göndərsinlər, repressiya maşını zəkalı, düşünən başları kəssin, görən gözləri çıxarsın (1937). Milləti min illərlə yaşadığı torpaqlardan qoyun sürüsü kimi yük vaqonlarına doldurub (1948-1953)[17] ilan mələyən susuz çöllərdə axırına çıxsınlar. Köləliyə dözmək istəməyən, itirilən torpaqların geri qaytarılmasını tələb edən dinc əhalini (20 Yanvar 1990-cı il)[18] tankların altında əzsinlər, yenidən müstəqillik (18 oktyabr 1991-ci il) əldə edən xalq Xocalı faciəsi, soyqırımı (26 fevral 1992-ci il)[19] yaşatsınlar və nəhayət, Dağlıq Qarabağı, ətraf 7 rayonla birlikdə işğal etsinlər, ələ keçirsinlər, xarabalığa çevisinlər.

Göründüyü kimi, mühacirəti doğuran tarixi zərurət, ictimai-siyasi, iqtisadi amilləri şərtləndirən səbəblər göz önündədir. Totalitar sovet rejiminin ideoloji buxovundan kənarda yaranan, milli düşüncə və iradəni fərqli şəkildə, fərqli siyasi prizmadan təsvir edən mühacirət ədəbi bədii düşüncəsinin təzahürü aydın görünür.

H.Ə.Sobulu mücadilə və fəaliyyətini, Azərbaycanın tarixini, mədəniyyətini, xalqa xidmətini qürbət ölkələrdə də unutmamış, onun dərdi, kədəri, həm də sevincini birgə yaşamışdır.

Tanrıya min şükürlər olsun ki, xalqın mübarizə əzmi, ruhu, arzu və ümidi sınmadı, «dəmir yumruğa» dönüb erməni faşizminin baçını əzdi. Müzəffər ordumuzun, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız işğaldan azad olundu.

H.Ə.Sobulunun bədii yaradaıcılığı tarixi mövzularla məhdudlaşmır. Torpaqlarımızı, Vətənimizi gündən-günə çiçəkləndirən, quran, yaradan, sənət, peşə adamları, şəhidlər, qazilər, əlillər, ziyalılar onun diqqət mərkəzindədir. Həmin şəxsiyyətlərdən biri uzun müddət Zəngilan rayonu səhiyyəsində xəstəxananın baş həkimi kimi əhaliyə ləyaqətlə, təmənnasız xidmət göstərən, həyatını bu peşəyə həsr edən Sultan Vəliyevdir.

Yüksək peşəkarlığı ilə xalqın sevgisini, rəğbətini qazanan Sultan həkimin canlı portreti H.Ə.Sobulu və Asif Bağırovun «Zəngilan səhiyyəsinin Sultanı» kitabında hərtərəfli işıqlandırılmışdır.

S.Vəliyev təkcə sənəti, vəzifəsi ilə deyil, sadəliyi, təvazökarlığı, el-obanın xeyir-şərində iştirakı ilə də nüfuz qazanmışdır.

İki mindən artıq cərrahiyyə əməliyyatı keçirən, xəstələrlə, yaralılara şəfa verən, ölümün pəncəsindən xilas edən Sultan həkim bəzən taleyin amansızlığı ilə də qarşılaşmalı olur, dərin iztirab keçirir, kədərlənir.

S.Vəliyev heç vaxt vəzifə imkanlarından sui-istifadə etməyib, var-dövlət, sərvət hərisi olmayıb, məlum hadisələrdən sonra Bakışəhərində yataqxanada məskunlaşıb və əbədiyyətə qovuşub, amma dünya boyda abır-həya, ismət, insanlıq miras qoyub, hər kəsə örnək, nümunə olub.

Dövlətimiz tərəfindən əməyi qiymətləndirilib «Respublikanın əməkdar hakimi» fəxri adı, «Şərəf nişanı» ordeni, «Səhiyyə əlaçısı» döş nişanı, «Lenin yubileyi» medalı, 1941-1945-ci ildə arxa cəbhədə fəaliyyətinə görə 5 medal,  respublika və rayon təşki-

latları tərəfindən onlarla «Fəxri fərman» və «Diplom»lara layiq görülüb. Qədirbilən xalqımız heç vaxt belə şərəfli, vicdanlı, nadir şəxsiyyəti unutmayacaq.

Zəngilanlılar digər bölgələrdə olduğu kimi, zarafatı, şuxluğu sevir. Bu baxımdan, Asif Bağırov «Zəngilan lətifələri» adlı kitablarında maraqlı əhvalatlar toplayıb. Asif Bağırov tədbirlərin birində imkan tapıb Sultan həkimlə söhbətləşir. Yeri gəlmiş, bir əhvalat danışır: «Kalinin adına kolxozun direktoru Novruzov İsmayıl kəndin mal nobatına getmiş oğlu bahadura günorta yeməyi aparır.» Bahadur:

- Papa, indicə bir tülkü gəlib girdi bu yuvaya. Novruzov diqqətlə baxıb görür ki, yuvanın iki yolu var. Pencəyimi çıxarıb deşiyin birini möhkəm bağlayır, o biri tərəfə isə çör-çöp yığıb od vurur. Tüstüdən boğulan tülkü pəncək tıxanmış tərəfdən qaçıb canını qurtarmaq istərkən pencəyin qolu onun başına keçir, pencəyi də özü ilə aparır. Ata, bala nə qədər tülkünü qovurlarsa tuta bilmirlər. Bahadur atasına təsəlli verərək deyir:

- Ay papa, onsuz da pencəyin çölə atılmalı idi.

Atası deyir:

- Ay zalım oğlu, pencəkdən deyiləm e.....Partbilet onun cibində idi, tülkü «çörək ağacı»mızı apardı»

Asif Bağırov deyir ki, Sultan həkim bu əhvalata o qədər ürəkdən güldü ki, onun heç vaxt belə gülən görməmişdim. Ondan bizə xatirə olaraq şirin bir gülüş qaldı....Mən də dəyərli oxuculara bir şirin gülüş payı arzulayıram.

**Alı Rəhimoğlu (Əliyev)**
**yazıçı, publisist**

# Müəllifdən

Müqəddəs Kitabımız «Qurani»[1] Kərimdə ölüm barədə bir neçə ayə var. Yazımın əvvəlində onları xatırlamaqda məqsədim oxucunu, insanları bədbinləşdirmək deyil, gerçəyi bildirməkdi. Dünyada Allahdan başqa əbədi heç nə yoxdur.

Allahın yaratdığı bütün canlılar ölümü dadacaqlar. Bəzən insan bu dünyada sanki əbədi qalacaqmış kimi davranar, yığar və yığar bir gün heç xəbəri belə olmadan nəyi varsa qoyub gedər.

Belə olan halda görəsən niyə bizlər, bizə yetən qədəri ilə kifayətlənmir elə hey yığır, başqasının əlində nə varsa onu da alırıq. Elələrimiz var ki, malı, pulu yığmağa yer tapmır, hətta hesabın bilmir.

Allah insanı yaradanda eyni zamanda şeytana da möhlət verdi.

«Qurani»-Kərim baxımından, şeytan[3] yalnız imanı kamil olmayanları yoldan çıxara bilər. Şeytan yalnız qeyri-səmimi və riyakarlar üzərində hökmranlıq edər, onları öz nüfuzuna sala bilər. Pak iman və ixlas sahiblərinin qəlbinə heç bir şeytan vəsvəsəsi yol açmaz. Çünki belə iman sahiblərinin ruhu yenilməz və şeytan vəsvəsəsi onların ruhuna nüfuz etməyə qadir deyildir.

-(İblis) dedi: - **"Sənin izzətinə-qüdrətinə and olsun ki, onların (***Adəm övladının***) hamısını (***haqq yoldan)*** azdıracağam; Yalnız Sənin sadiq bəndələrindən başqa!"** Sad surəsi, 82-83-cü ayələr.

**-Doğrusu, Mənim (***mömin)*** bəndələrim üzərində sənin heç bir hökmranlığın ola bilməz. Rəbbinin vəkil olması (*sənin şərindən və vəsvəsəndən onları qorumağı)* **kifayət edər! Şeytan insanları vəsvəsə ilə aldadır və yoldan çıxarır, lakin sadiq və xalis iman sahibləri şeytana uymaz**. İsra surəsi, 65-ci ayə

Ayələrdən göründüyü kimi şeytan qiyamətə kimi bizim düşmənimiz olaraq qalacaq və bizi düz yoldan sapdırmağa çalışacaq.

Xöşbəxt o insandır ki, şeytana inanmaya, onun şirin dilinə inanıb yolundan azmaya.

Allah Quranda insana Cənnət[4] vəd edir. Əgər Adəm[5] oğlu bu dünyada şeytana uymazsa, özünə aid olanla kifayətlənərsə, elə bu dünyada da, o cənnəti görər və yaşayar. Allah bu dünyada insanın yaşaması üçün hər şey yaradıb.

Dahi şairimiz Nizaminin[6] ideal həyat barədə fikirləri çoxdur. Nizami bu ideyanı «Quran»dan götürüb.

-Nizaminin məntiqinə görə, ədalətsiz müharibə zülmdür. Həm ölkəni, həm də dünyanı zülm altında saxlamaq faydasızdır. Allah hökmdarları Yer üzünə məhz əmin-amanlıq yaratmaq, zülmü aradan qaldırmaq üçün gətirmişdir.

Böyük mütəfəkkir insanlığa üz verən iztirab və bədbəxtliklərin səbəbini bilavasitə insanın özündə, insanlıq hisslərinin yox olmasında görür. Yalnız «insanlıq nəqşini oxumaqla, bugünkü insanlığın nə demək olduğunu» dərk etmək olar. Nizaminin fikrincə, başqalarına əzab və iztirablar verən adamdan əsl insan, öz xalqına əziyyət verəndən müdrik və ədalətli hökmdar olmaz. Hökmdarlıq insana tabeliyində olanlara əziyyət vermək, zülm etmək üçün verilmir. Belə hökmdarlıq alçaqlıqdan, rəzillikdən başqa bir şey deyildir.

Nizaminin sosial ədalət konsepsiyasında insafdan və xeyirxahlıqdan dönməzlik haqq və ədalət yolunda atılan mühüm addım kimi qiymətləndirilir. Onun ideyasına görə, «ədalət yolundan dönməzliyi insanlara adil və ulu Tanrının özü öyrətmişdi». «Yoxsula, məzluma kömək olmaq, qaranlıq gecədə parlayan şimşək kimi çaxır».

**N.Gəncəvinin ideal və ədalətli cəmiyyət konsepsiyasında insan haqları ideyasının təcəssümü**

Mən də ağlım kəsəndən belə bir ədalətli cəmiiyyət arzusunda oldum. Həmişə insanlara bu cür yanaşdım, əksini görəndə isə

sanki dərin bir quyuya düşdüm və aylarla oradan çıxa bilmədim, mənən əzildim.

Bizim Zəngilan dünyanın siyasi xəritəsində heç iynənin ucu boyda belə görünmür. Bu balaca diyarın bu dünyaya sığmayan saf, təmiz əqidəli, əxlaqlı, gözü tox insanları olub. Mən burada onlardan danışacağam. Çox güman ki, belələri az deyil, amma həyatda tanıdığım üç kişidən yeri gəldikcə söhbət açacağam. Burada onlardan uçunü qeyd edəcək birindən isə geniş danışacağam. Bunlar Mürsəl Qocayev[7], Sultan Vəliyev[8] və Asif Bağırovdur[9].

Bu insanlar ömürləri boyu Zəngilan[10] rayonunda yaşadılar. Mürsəl Qocayev rayonda nəşr olunan «**Kənd h**əyatı»[11] qəzetinin baş redaktoru idi. O, 35 il bu mətbu orqana rəhbərlik etmişdir. Bilirsiniz ki, sovet zamanında qəzetin hökmü milisdən, prokurordan, məhkəmədən də qüvvətli idi. Bu sahənin başında duran kişi nə istəsəydi eləməzdi. Amma, Mürsəl Qocayev ömrü boyu ictimai binada yaşadı. O istəsəydi özünə bir çoxları kimi şəxsi ev tikə bilməzdimi? Qaçqınlıqdan sonra da Bakıda[12] yataqxanada yaşadı və bu yalan dünyanı düzlüklə, saf əqidə ilə tərk etdi.

İkinci tanıdığım adam isə Zəngilan səhiyyəsinə 35 il rəhbərlik etmiş Sültan Musa oğlu Vəliyevdir. O da elə Mürsəl müəllim kimi istəsəydi özünə təmtəraqlı bir həyat qurardı. O, da xəstəxanaya məxsus kiçik bir otaqda yaşadı. Qaçqınlıqdan sonra yenə yataqxana həyatı davam elədi və o da bu dünyaya təmizliklə, saf əqidə ilə əlvida dedi.

Üçüncü belə bir insan isə Asif Kərim oğlu Bağırovdur. Yuxarıda qeyd etdiklərim öz peşələrinin kamil ustaları idilər. Öz işlərini vicdanla yerinə yetirərdilər, kimsə onlara deyərdim ki, bəlkə həyatları boyu bir irad tutdadı, nöqsan axtarmadı.

Asif müəllim də bunlar kimi işlədi. Mən bu adamda elə maraqlı məqamlar gördüm ki. Ali təhsilli tarix müəllimi, pedaqoq, təhsil sahəsində işini bilən biridi. İkincisi, bu adamı deyərdim ki, Zəngilanda tanımayan yox idi. Bu insan 30 ilə yaxın Zəngilanda

el şənliklərininin önündə olub. Dediyinə görə 2 mindən çox toy çalıb. Onun rayonda qarmon çalanlar arasında şübhəsiz birinci olduğunu desəm səhv etmərəm. Əsas məsələ odur ki, bu adamın müsiqi təhsili yoxdu, amma muğamı, musiqini çox gözəl bilir və ifa edir.  20 ilə yaxın Pionerlər evinin[13] direktoru işləyən Asif Bağırov bu illər ərzində onlarla gənc istedadları hazırlayıb Respublika və Ümumittifaq müsabiqələrinə yollayıb. Kənardan baxana asan gələ bilər, əsilində isə bu çox çətin və əziyyətli bir işdi. Sizlərin çoxunuzun tanıdığınız musiqiçilərin çoxunu o hazırlaşdırıb, o üzə çıxarıb. Toylara gedənlərin nələr qazandığını yaxşı bilirsiniz. Onların çoxunun maşını var idi. Amma bu adamın nə maşını oldu, nə də ki şəxsi (o, işğala kimi atası Kərim[14] kişidən qalma evdə yaşadı. İşğaldan sonra isə Bakıda yataqxanada) evi. Qazandığını xeyirdə-şərdə dost- tanışları üçün xərclədi.

Bu adamın üçüncü bacarığımı deyim, qabiliyətimi deyim publisistikadı. Onun həm rayon, həm də ki, Respublika mətbuatında 200 dən çox elmi və publisistik yazıları və bir kitabı çap olunub. Bu adam təhsili, musiqini yüksək səviyyədə bildiyi kimi yazılarında da əbədi qaydalara da yüksək məsuliyyət və tələbkarlıqla yanaşır..

Mənim bu günkü söhbətimin qəhrənanı isə Sultan Musa oğlu Vəliyevdi. Onun haqqında istədim bir xatirə hazırlayam. Bu barədə fikirimi Asif Bağırova bildirəndə, mənə böyük mənəvi dəstək verdi deyərdim ki, məndən də çox bu işə can yandırdı.

Əziz oxucu. Sizi indi bu kitabla baş başa buraxıram. Söz sizindi. Yaxşılarımızı tanıyaq, onları unutmayaq**.**

**H.Ə. Sobulu**

## Sultan Vəliyevin həyatı



Zəngilanın ilk həkim kadrı Sultan Musa oğlu Vəliyev olmuşdur. O, 1925-ci ildə indiki Zəngilan rayonunun Malatkeşin[20] kəndində anadan olub. 1952-ci ildə Tibb İnstitutunu[21] (indiki Tibb Universiteti) bitirib, həkim-cərrah kimi Zəngilanda işə başlamışdır. 1954-cü ildə Zəngilan Rayon Xəstəxanasının[22] baş həkimi vəzifəsinə təyin olunmuş, 1989-cu ilə qədər həmin vəzifədə işləmişdir. 1989-cu ildən 1993-cü ilə kimi Poliklinika şöbəsinin müdiri vəzifəsində işləyən Sultan Vəliyev rayonun işğalından sonra Bakı şəhərində məskunlaşmış və Yasamal[23]rayonundakı 19 saylı polikilinikada cərrah kimi fəaliyyətini davam etdirmişdir.

Sultan Musa Oğlu Vəliyev 09 sentyabr 2010-cu ildə vəfat etmişdir.

## Qohumları barədə

**Atası.** Kalba (Kərbəlayi) Musa[24]- Malatkeşin kəndinin sayılıb seçilən adamlaırndan olub. İraqda[25] olan Həzrəti Hüseynin[26] məqbərəsini ziyarət edib. Uzun illər kənddə kolxoz təsərrüfatında işləyib.

**Anası.** Gözəl[27] xanımdır ki, o, da kənddə təsərrüfatda işləyib.

**Həyat yoldaşı-**Gövhər[28] xanım əslən Bartaz kəndindən idi. Evdar qadındı. (1950-2020)

**Qardaşı.** Vəliyev Yədulla Musa[29] oğlu- tibb texnikumunu

bitirib. Uzun illər rayonda SES[30]-da sanitar feldşer işləyib. Işğaldan əvvəl rayonda vəfat etmişdir.

**Bacısı.** Vəliyeva Fəridə Musa qızı[31]-Zəngilan şəhərində Köhnə Pirçivanla[32] şəhəri ayıran hissədə, Cəfər Cabbarlı[33] küçəsi, 8 ünvanda yaşayıb. O da qaradaşları kimi tibb sahəsində çalışıb. Tibb bacısı olan Fəridə Musa qızı Vəliyeva Fərəcov Atlıxan Musa oğlu[34] ilə evli idi.

**Bacısı** Vəliyeva Gülnisə Musa qızı.[35] O Məhəmməd[36] adlı biri ilə evli idi. Məhəmməd vaxtı ilə Zəngilan rayon ZDS İK-nin katibi işləyib.

## ZƏNGİLAN SƏHİYYƏSİNİN SULTANI

Məqsədim Zəngilan rayon Səhiyyə şöbəsinə otuz beş il (1954-1989-cu illər) bacarıqla rəhbərlik etmiş görkəmli cərrah Sultan Musa oğlu Vəliyev haqqında gözümlə görüb şahidi olduğum, mötəbər insanlardan eşitdiyim, bəzi kitab və qəzetlərdən oxuduğum hadisələri reallıqla qələmə almaqdır. Giriş üçün Zəngilan rayonu, onun mərkəzi Pirçivan kəndindən az da olsa məlumat verməyi vacib sayıram.

….Uşaqlıq illərimi, keçən əsrin əllinci illərinin əvvəllərini xatırlayaraq kəndimiz, onun mərkəzi məhəlləsindəki Məscid yadıma düşür. M.C.Bağırov [37] adına kolxozun inzibati binası, Mərkəzi Xəstəxana, əvvəllər Ağa bəyə[38] , Nəzər bəyə[38], Gəray[38] bəyə və Humay[38] bəyə məxsus ikimərtəbəli binalar onların əllərindən alınaraq Zəngilan rayon Zəhmətkeş Deputatları Sovetinin İcraiyyə Komitəsi Ağa bəyin, Ə.S), Milis və DTK-nın rayon şöbəsi Nəzər bəyin, Zəngilan rayon Partiya Komitəsi Gəray bəyin və rayon Hərbi Komissarlığı isə Humay bəyin evində yerləşirdi. Raykomun I katibinin və İcraiyyə Komitəsi sədrinin yaşadığı birmərtəbəli bina həmin ərazidə idi. Evimiz mərkəzdə, həm də

giriş-çıxış yolunun qırağında olduğundan hər şeylə maraqlanmaq və yadda saxlamaq vərdişlərinə yiyələnmişdim. Bir tərəfdən də həmin illərdə atamın kolxozda taxıl, bağ-bostan briqadiri, təftiş komissiyasının sədri vəzifələrində işləməsi, onun arxasınca düşüb kolxoz idarəsinə getməyim, bir sıra adamları tanımağıma şərait yaratmışdı. Kolxozun binası və həyəti Zəngilan rayon Mərkəzi xəstəxanası ilə paralel olaraq yan-yana idi. Onun geniş həyətində müxtəlif bəzək ağacları, gül kolları əkilmişdi. Oradakı raykomun[39], İcraiyyə Komitəsinin[40], Hərbi Komissarlığın[41], Lenin[42] adına parkın ərazisindəki ağac və gül kolları başqa şəhərlərdən gətirilmişdi. Xəstəxana hər tərəfdən hündür hasara alındığından, orada kimlərin işlədiyini, ora gəlib-gedənləri hasarın üstünə çıxmaqla görmək olardı. Xəstələrin qəbulu və müayinəsi qapısı kolxoza tərəfki korpusda aparılırdı. Həkimlərin heç birisi Zəngilanlı deyildi. Sara həkim[43], Kələntər[44] həkim, Namaz [45] həkim gəlmə idilər. Şəkidən[46] olan Əfşan[47] həkim Şöhrət Ordeninin[48] hər üç dərəcəsi ilə təltif olunan, Qıraq Müşlan kənd sakini Vəli Quliyevlə[49] ailə həyatı qurduğundan ömrünü Zəngilana bağlamışdı. Onun kiçik bacısı Durna[50] da xəstəxanada tibb bacısı işləyirdi. Əslən bakılı Ağabacı[51] Fərəcova mamaça idi. O da Əkbər Fərəcovla[52] ailə qurmuş, Zəngilanın işğalınadək orada yaşamışdı. Orta ixtisaslı olsa da işini yaxşı bildiyindən hamı ona həkim deyə müraciət edirlər. Orada bir Mələk adlı həkim vardı, o da zəngilanlı deyildi. Tanıdıqlarımızdan orta ixtisaslı stomatoloq İsmixan Xudiyev[53], Gilətağ kəndindən feldşer Əziz Mehtiyev[54] idi. Onlara da hamı doktor deyə müraciət edirdilər. İ.Xudiyev Üdgün kəndindən idi. Onun Zəngilan səhiyyəsində yaddaqalan xidmətləri olub. Dişi çəkər və yaxud müalicə edər, pasientdən pul ummazdı. Xəstəxanada erməni milliyyətindən Maqda[55] adlı tibb bacısı da işləyirdi. Əri Niftalı zəngilanlı idi.

Biz hasarın üstündə oturub ora-bura boylanaraq, raykoma gəlib gedənlərə baxardıq. Orada xətrini ən çox istədiyim adam

bağban Eyvaz [56] dayı idi. Yaxşı gül-çiçək və meyvə becərərdi. Mövsüm vaxtı ona tez-tez işimiz «düşərdi». O, heç vaxt bizi əliboş geri qaytarmazdı. Məhəlləmizdəki kolxozçu balaları :

-Adışırın[57] və Məmməd[58] (ona Mamed deyirdilər) Qasımovlar, Lala oğlu Süleyman[59] və mən belə fikirləşirdik ki, bu hündür hasarları bizim oradan gül-çiçək, meyvə oğurlamağımızın qarşısını almaq üçün ediblər. Yaşlı pirçivanlılar danışırdılar ki, xəstəxana 1935-ci ildə tikilib. Orada və digər görkəmli yerlərdəki hasarlar ağacların, gül-çiçəklərin müdafiəsi, mal-heyvanlardan qorunması üçün çəkilib. Hətta Zəngilan rayon Zəhmətkeş Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri Ziyad Məmmədovun[60] və katibi Xanlar Həsənovun[61] bu haqda imazaladığı 1950-ci ilin may ayının 16-sı tarixli qərarı da var. Qərarda müxtəlif cərimələr nəzərdə tutulurdu. Ziyad Məmmədov RİK-nin sədri işləyən ilk zəngilanlı idi. Zəngilanın inkişafında onun müstəsna xidmətləri olub. Dövlət planlarının yerinə yetirilməsi, Zəngilanın abadlaşdırılması, yerli kadrların təhsilə cəlb edilərək rəhbər vəzifələrə irəli çəkilməsində Ziyad Məmmədovun xidmətləri əvəzsizdir.

O, 1943-cü ilin may ayında 22 nəfər zəngilanlını Qaryagin[62] (indiki Füzuli) rayonuna kolxozlar üçün baş mühasib, mühasib və zootexniklər hazırlayan üç aylıq kursa göndərir. Bunların arasında sonralar təhsillərini davam etdirərək axır vaxtlaradək Zəngilanda böyük hörmət qazanıb, işini mükəmməl bilən Şamı Bağırov[63], Qubad Bağırov[64], Hüseyn Müzəffərov[65], Alı Alıyev[66] və digərləri vardı.

Hacı Əli Sobulunun 2013- cü ildə işıq üzü görmüş 572 səhifəlik «Rusiya işğalları və Zəngilan» adlı tədqiqat əsərini oxuyarkən o dövrlərə aid maraqlı hadisələrlə rastlaşırıq.

**1948.** Bu il rayondan 4 nəfər pedaqöji məktəbə, 7 nəfər Azərbaycan Dövlət Universitetinə[68], 8 nəfər Tibb İnstitutuna[69], 9 nəfər Pedaqoji İnstitutlara, 6 nəfər Kirovabad (indiki Gəncə) Kənd Təsərrüfatı İnstitutuna[70], 5 nəfər kolxoz rəhbəri işçisi hazırlıq

məktəbinə, 21 nəfər iki illik müəllim kursuna, 48 nəfər texnikumlara göndərildi. (Bu da Ziyad Məmmədovun RİK-nin sədri işlədiyi vaxta düşür. A.Bağırov)

Yenə həmin kitabda arxiv materiallarına əsaslanan faktları həyəcansız oxumaq olmur. Faciəli odur ki, rayon rəhbərliyində çox sayda ermənilər (hay Ə.S) var idi. 1933-1940-cı illərdə Fərəməzyan[71] səhiyyə şöbəsinin müdiri, Arakelov Ruben[71] tədarük idarəsinin müdiri müavini, Gevorqa[71] RİK-nin xüsusi hissə müdiri-raykomun büro üzvü, Avakyan Karyagin[71] Kommunal Təsərrüfat idarəsinin müdiri, Zarqaryan Pavlik Mkrtıçeviç[71] raykomun büro üzvü,(Onun anketində partiya cəzası olduğu yazılıb). NKVD (XDİK-Xalq Daxili İşlər Komisarlığı-Ə.S), Melkumov Qurgen[71] Rayon Partiya Komitəösinin II katibi, Eşayan[71] sərhəd zastavası komandiri, Rayon PK üzvü, Zaxaryan Arsen Vartazaroviç[71] (o uzun zaman rəhbər işçilərin maşınında sürücü işləyib) konfrans nümayəndəsi olub. Bu bəs deyilmiş kimi 1960-cı illərdə Aşot Karamyan[71] adlı bir erməni Zəngilan rayon Kommunal Təsərrrüfat idarəsinin müdiri işləyirdi. Onlardan Azərbaycanın, o cümlədən Zəngilanın xeyrinə bir şey gözləmək olardımı?

Yaxşı ki, həmin çətin zamanlarda Zəngilan ictimaiyyətinin etibarını qazanmış həmyerlilərimiz, stajlı kommunistlər: Xanməmməd Xanməmmədov[72], İsmayıl[73] və İsfəndiyar Sayılovlar[74], Həsənqulu Bayramov[75], Ədil Məhərrəmov[76], Qara Zamanov[77], Bəhlul Kərimov[78], Bakı fəhləsi Kiçikxan Quliyev[79], gənclərdən Heydərqulu Kərimov[80] kimi kadrlarımız vardı.

Zəngilanın I katibi, İcraiyyə Komitəsinin sədri (Ziyad Məmmədova qədər) milis rəisi (Həsənqulu Bayramov istisna olmaqla), prokuroru, DTK (Dövlət Təhlükəzisliyi Komitəsi) rayon şöbəsinin sədri, məhkəmə, səhiyyənin baş həkimi kənar yerdən gəlmə idilər.

Yuxarıda adların çəkdiyim təəssübkeş, heç nədən çəkinməyən kommunistlərimiz ayağını əyri qoyan rəhbərlərə öz sözlərini deyə bilirdilər.

Ə.Sobulunun adı çəkilən kitabından oxuyuruq:

- Məmmədov Piri[81] deyir, Süleymanov[82] rayonda bir çinovnik kimi hərəkər edirdi.

Məhərrəmov Ədil. Süleymanov bir çoxlarını yoxlamadan RK və komsomola işə götürürdü. Məsələn Qəmər Musayevanı[83].

Heydərov Məhəmməd [84]. Salamzadə [85] (keçmiş I katib-A.Bağırov) bəzi intriqalara qarışdı, Süleymanov isə aktivdən ayrı düşdü başçılıq edə bilmədi.

Həmin plenumda Süleymanov I katib vəzifəsindən azad edildi. Səh 271.

Rayonlaşmadan sonra inzibati və təhlükəsizlik orqanlarında işləyənlərin əksəriyyəti nahaq yerdən namuslu adamları həbsə calar, sürgünə göndərər və ya güllələyərdilər. Zəngilanın ən parlaq simalarından biri Xosrov[86] müəllim, Pirçivan kənd sakinləri Kərbəlayi Nəbi[87], Kərbəlayi Ələkbər[88], Cahangir[89], Ələsgər[90] qardaşları və digərləri bu rejimin qurbanı olmuşdular.

Bəla burasında idi ki, yalandan üzə dirəşənlərin çoxu «özümüzünkülər» idi.

Qocaman kommunist, Zəngilanda Troykanın[91] üzvü Həsənqulu Bayramov milis rəisi vəzifəsində çalışarkən xeyli sayda günahsız insanları belə gedər-gəlməzlərdən xilas edə bilmişdi. Bəzən hövsələsini cilovlaya bilməyən bu qeyrətli kişi yeri gələndə qeyrətsiz vəzifəliləri əlləri ilə başa salmalı olurdu.

Əli Sobulunun adı çəkilən kitabından.

1 yanvar 1935-ci ildə Pirçivan kəndi aralığında Həsənqulu Bayramov məhkəmə Əliyevi [92] vurur. səh 271

Müxtəlif təqiblərə, hər addımda ədalətsizliyə rast gələn Zəngilan ziyalıları, sadə insanlar bu səbəbdən rayondakı bütün rəhbər vəzifələrdə öz həmyerlilərini görmək istəyirdilər. Bu arzu yerlipərəstlik yox, əsil vətənpərvərlik, yurdsevərlik və düzgün seçim kimi qiymətləndirilməlidir.

Qırxıncı illərin sonları, əllinci illərin əvvəllərində Zəngilanda nəzərə çarpacaq sayda yerli kadrlarımız yetişirdi. Onların arasında Böyük Vətən Müharibəsində[93] oddan-alovdan çıxmış, mətinləşmiş, qəhrəmanlıq göstərmiş həmyerlilərimiz daha çox idi. Məhəmməd Heydərov (Malatkeşin), Əbil Həsənov[94] (Malatkeşin), Vəli Quliyev (Qıraq Müşlan), İdris Şıxəliyev[95] (Qazançı), Qulu Quliyev[96] (Qazançı), Hüsü Hüsüyev[97] (Məlikli), Fərəməz Paşayev[98](Məlikli), Məhərrəm Məhərrəmov[99](Çöpədərə), Soltan Qardaşov[100] (İçəri Müşlan), Şahsuvar Həsənov[101](Pirçivan), Bəhmən Allahverdiyev[102](Pirçivan), Qurban Quliyev[103] (Köhnə Pirçivan), Rzaxan Rzayev[104] (Pirçivan), Allahverən Həsənov[105](Alıbəyli), Bürcalı Əhmədov[106](Alıbəyli), Mustafa Mustafayev[107] (Ağkənd), Vəli Mustafayev[108](Yeməzli), Bəxtiyar Süleymanlı [109](Bartaz), Məhəmmədəli İsmayılov[110](Məmmədbəyli), Rəşid Yusifov[111] (Genlik), Allahverdi Əsgərov[112] (Məlikli) və.s belələrindən idi. Qocaman kommunistlərdən Həsənqulu Bayramovun, Kiçikxan Quliyevin, İsfəndiyar Sayılovun, Ədil Məhərrəmovun, Soltan Səfərovun[113], Ziyad Məmmədovun, Atlıxan Xanməmmədovun[114], Heydərqulu Kərimovun, Ələsgər Həşimovun[115], Şəfahət Mehtiyevin[116], Şirin Nəbiyevin [117](o həm də Böyük Vətən Müharibəsi iştirakçısı olub), Qara Zamanovun (Bartaz), Xanlar Həsənovun, Eyvaz Vəliyevin[118] (Qıraq Müşlan), Davud Həsənovun[119](Pirçivan), Əliş Əliyevin [120](Şərikan-Bürünlü), gənclərdən Sultan Vəliyevin, Ziyad Təhməzovun[121], Nəzir Kərimovun[122], Alməmməd Kərimovun[123], Əfrayıl Hüseynovun[124], Oktyabr Rüstəmovun[125] və s. rayondakı müsbət fəaliyyətləri bütün tələblərə cavab verirdi. Bunun nəticəsi idi ki, adlarını sadaladığım şəxslər sonralar ömürləri boyu Zəngilanda, bəziləri isə digər rayon və şəhərlərdə rəhbər vəzifələrdə çalışdılar, elin-obanın dərin hörmətini qazandılar. Eyni zamanda dövlət tərəfindən müxtəlif adlara, mükafatlara layiq görülmüşlər. İndi mən əsil mətləbə gəlib həmin adamlardan biri –Sultan Musa oğlu Vəliyev haqqında uzun illər

müşahidə etdiklərimi, yaddaşımda əbədiləşən xatirələri oxucularla bölüşmək istəyirəm. Əlbəttə ilk cümlələri Zəngilanda səhiyyənin yaranma tarixindən başlamağı məqsədə uyğun hesab edirəm. Çoxumuz bu tarixi SSRİ və Azərbaycan SSR-nin yarandığı tarixdən hesablayırıq. Əsil tarix isə daha əvvəlki illərə gedib çıxır. Əli Sobulunun adı çəkilən kitabında səhifə 204-də belə bir məlumat vardır:

**-Yelizavetpol[126] qubernatorunun 16 oktyabr 1909-cu il tarixli əmri:** -Zəngəzur qəzasının[127] Pirçivan[128] kənd sakini İsrafilbəy Sultanov[129] Zəngilan kənd[130] xəstəxanasının təqdimatı ilə Zəngəzur qəzasının Zəngilan həkim sahəsinə həmin ilin 15 sentyabrından dövlət ospoprisivateli təyin edilsin.

Digər bir məlumat da belədir:

- **Yelizavetpol qubernatorunun 07.10.1913-cü il tarixli 98 saylı əmri:**

- Zəngəzur qəzasınıın Zəngilan xəstəxanasının mamaçası (Povinalnaya babka) Anastasiya Stepanovna[131] oktyabrın 1- dən vəzifəsindən və ümumiyyətlə xidmətdən azad edilsin. (adı çəkilən kitab, səhifə 204).

Bu materiallar Zəngilanda səhiyyənin XX əsrin əvvəllərindəki fəaliyyətinə aiddir. Qəti şəkildə demək olar ki, Zəngilanda səhiyyənin yaranma tarixi 1909-cu ildən daha qabaqkı illərə gedib çıxır.

Keçən əsrin otuzuncu illərindən sonra rayonumuzdakı səhiyyə sistemi, orada işləyənlər, ora rəhbərlik edənlər barədə az da olsa Ə.Sobulunun və mənim məlumatlarım yuxarıda qeyd olunmuşdur. Ömrünün əlli ildən çox hissəsini zəngilanlıların sağlamlığına sərf etmiş, Zəngilan səhiyyəsinin Sultanı adlandırdığımız Sultan Musa oğlu Vəliyevin həyat və fəaliyyətindən müəyyən sətirlər.......

O,10 may 1925- ci ildə Zəngilan rayonunun Malatkeşin kəndində mömin bir insan olan Kərbəlayi Musanın ailəsində dünyaya

göz açmışdır. Doğulduğu kənddə ibtidai təhsil alan Sultan orta təhsilini Pirçivan kənd orta məktəbində yüksək qiymətlərlə başa vurmuşdur. Gənc Sultanın otra məktəbi bitirdiyi illər İkinci Dünya savaşı[132] ilə yadda qalan Böyük Vətən Müharibəsinin (1941-1945) ən mürəkkəb vaxtlarına düşmüşdür. Hitler Almaniyasının[133] müharibənin əvvəllərindəki üstünlüyü, dünyanın bir sıra ölkələrinin, o cümlədən SSRİ-[134] nin müəyyən ərazilərinin zəbt olunması, dağıdılması, yaş məhdudiyyətinə baxmayaraq hərbə yararlı insanların orduya cəlb edilməsi, aclıq, tələfat və arxa cəbhədə kadr çatışmazlığı böyük çətinliklər yaratmışdı. İxtisaslı kadrlara olan tələbatı ödəmək üçün Sultan Vəliyev Qaryagin (indiki Füzuli) rayonuna pedaqoji kursa göndərilmiş bir illik pedaqoji təhsildən sonra 1943-cü ildən 1944- cü ilin avqust ayınadək Zəngilan kənd orta məktəbində fizika-riyaziyyat müəllimi işləmiş, 1944-cü ilin avqust ayından həmin ilin noyabr ayınadək Zəngilan Rayon PK-də texniki katib olmuş, noyabr ayında isə daha məsul vəzifəyə Zəngilan rayon Komsomol Komitəsinə I katib seçilmişdir. Bu vəzifədə çalışarkən Sultan Vəliyev müharibədə itkin düşənlər bir yana, əlsiz-ayaqsız rayona qayıdan yüzlərlə zəngilanlının tibbə olan ehtiyacını nəzərə alaraq onu daha yuxarı pillələrə aparacaq vəzifələrdən aralanmağı qərara almış və 1946-cı ildə sənədlərini Azərbaycan Dövlət Tibb İnstitutuna verərək tələbə adını qazanmış, 1952-ci ildə İnstitutu bitirərək ilk zəngilanlı cərrah kimi rayon xəstəxanasında işə başlamışdır. İşini mükəmməl bilməsi və sevməsi, insanlara olan məhəbbəti, çalışqanlığı, Hippokrat andına sədaqəti onu daha da şöhrətləndirmiş, 1954- cü ilin oktyabr ayından 1989- cu ilin oktyabr ayınadək fasiləsiz olaraq Zəngilan rayon Mərkəzi Xəstəxanasının baş həkimi işləmişdir.

O, baş həkim vəzifəsində çalışdığı 35 il ərzində zəngilanlılara gecəli-gündüzlü lazımı anda təmənnasız xidmət etmək üçün rayon rəhbərliyinin ona kənar yerlərdən verdiyi bərli-bəzəkli binalardan imtina etmiş, ömür–gün yoldaşı ilə xəstəxananın həyatindəki

kiçik bir mərtəbəli otaqda yaşamışdır. Bu xüsusiyyətlərinə görə o, qədir bilən zəngilanlıların gözündə peyğəmbərlik zirvəsinə ucalmış, haqlı olaraq Zəngilan səhiyyəsinin Sultanına çevrilmişdir.

Sultan Vəliyevin baş həkimliyə təyinatı çətin bir dövrə təsadüf edir. Azərbaycana, o cümlədən Zəngilana sağalmaz yaralar vuran Böyük Vətən Müharibəsindən heç 10 il də keçməmişdi. Digər tərəfdən Zəngilan ən ucqar dağ rayonlarından biri idi, başqa bir səbəb də Sultan həkimin istinad edəsi, təcrübəsindən bəhrələnəsi təcrübəli yerli həkim də yox idi. Tibbi kadrlar yox dərəcəsində idi. Ucqar kəndlərlə əlaqə telefon, yol, nəqliyyat olmaması səbəbindən zəif idi. Ən böyük çətinliklərdən biri də nəinki gündüzlər, həmçinin gecələr rayonun yaşayış məntəqələrinin 70 faizdən çoxunda elekrtik enerjisinin olmaması idi. Bunun əvəzində Sultan Vəliyevin elinə, obasına, işinə dərin məhəbbəti, yüksək bacarığı və təşkilatçılığı az müddətdə qazandığı böyük nufuzu vardı. O, qazandığı etimadı Zəngilan səhiyyəsinin dirçəlişinə sərf etdi. Ilk növbədə xəstəxana o dövrə qədər olmayan təcili tibbi yardım maşını ilə təmin olundu. Yeni-yeni xəstəxanaların açılışı, onların müasir tibbi avadanlıqla təchizi, hər xəstəxanaya tibb maşınlarının verilməsi onun gərgin əməyinin məhsulu idi. Keçən əsrin 60-cı illərinin ikinci yarısından Sultan həkimin təşəbbüsü ilə açılan və iki buraxılışdan (1965,1966- cı illərdə) ibarət olan bir illik tibb məktəbi kənd yerlərində orta ixtisas tibb kadrlarına olan ehtiyacı əsasən ödəmiş oldu. 1952-ci ildə ilk zəngilanlı ali təhsilli həkim kimi fəaliyyətə başlayan Sultan həkimin sonralar rayonda 100 nəfərdən çox həmyerlisi, həmkarları var idi. Onlarla həkim tibb elmləri namizədi alimlik dərəcəsi adı alaraq Bakıda və digər yerlərdə fəaliyyət göstərirdilər. Hamısı da Sultan həkimin təcrübəsindən bəhrələndiklərini söyləyirdilər. Sultan Vəliyevin fəaliyyətinin daha da səmərəli olmasında el hörməti qazanmış Alı Cəfərovun[135], İskəndər İskəndərovun[136], Ələsgər Vəliyevin[137], Əfşan Rəhimovun, Nuşirəvan Cəfərovun[138], Cəbra-

yil Cəbrayılovun[139], İsmixan Xudiyevin, Qaçay Hüseynovun[140], Əşrəf Əsədovun[141] və digərlərinin də əməyi az olmayıb. Sonralar Yavər Məmmədov[142], Səmayə Məmmədova[143], Əli Əliyev[144], Allahverdi İmanov[145], Eldar Babayev[146], Tofiq Babayev[147], Məsud Qocayev[148], Məzahir Qocayev[149], Telman Həsənov[150], Alış Quliyev[151], Yusif İsmayılov[152], Tariyel Salmanov[153], Sabir Səfərov[154], Səltənət Mehrəliyeva[155], Səhiyəddin Həsənov[156], Nəzakət Bağırova[157] və başqalarının hesabına Zəngilan səhiyyəsi müxtəlif ixtisaslar üzrə daha da genişlənmiş və zənginləşmişdi.

Sultan həkimin təmizliyi, rüşvətdən aralı olması, qayğıkeşliyi hər bir tibb işçisi üçün nümunə və bir məktəb idi. Əslində bu nümunəni mənimsəmək tibb sahəsində çalışanlara gələcəkdə çox lazım idi. Çoxları da buna riayət edirdi.

Tibb işindən az çox məlumatı olanlar haqlı olaraq Sultan həkimi məşhur rus cərrahı Piroqovla[158] və İbrahim Topçubaşovla[159] müqayisə edirlər. Doğrusu zəngilanlılar Sultan həkimə qədər belə bir səxsiyyətə rast gəlməmişdilər.

Onun yolu ilə gedən həkimlərimiz var idi. Lakin onlar özləri də səmimi olaraq etiraf edirlər ki, biz çox çalışdıq, Sultan zirvəsinə ucala bilmədik.

Sultan həkim barədə verilən məlumatlarda onun beş mindən çox cərrahi əməliyyat apardığı qeyd olunur. Onun Sumqayıt[160] və Bakıda fəaliyyətini də nəzərə alsaq bu rəqəm altı minə yaxındır.

Sultan həkimin Zəngilandakı 41 illik (1952-1993-cü illər) səmərəli fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, rayon Partiya Komitəsinin bir sıra konfranslarında rayon Komitəsinin büro və plenum üzvü seçilmişdir. Bütün çağırışlarda rayon Sovetinin deputatı mandatını qazanmışdır. O, dəfələrlə həm respublika, həm də rayonda daha yüksək vəzifələrə dəvət almışdı. Bir qayda olaraq həmişə də bunlardan imtina etmişdi.

Sultan həkim Zəngilanda yeganə olaraq «Respublikanın əməkdar həkimi»[161] adına layiq görülmüşdü. Onun digər təltifləri

«Şərəf nişanı»[162] ordeni, «Səhiyyə əlaçısı»[163] döş nişanı, Lenin yubiley medalı[164] və əlavə 1941-1945- ci illər müharibəsində arxa cəbhədəki fəaliyyətinə görə 5 medalla təltif olunmuşdır. Bunlarla bərabər Respublika və rayon təşkilatları tərəfindən Sultan həkim onlarla «Fəxri Fərman» və «Diplom» sahibi idi.

Sultan Vəliyev zəngilanlı ilk ali təhsilli cərrah olmaqla yanaşı, bəlkədə rayonda bir ailədə (fakt keçən əsrin əllinci illərinin ikinci yarısına aiddi) üç nəfər tibb işçisi olan ailənin üzvüdür. Onun bacısı Fəridə xanım və qardaşı Yadulla da orta ixtisas tibb işçiləri idilər. Bu rayon üçün olduqca önəmli bir hadisə idi.

Zəngilanın həkimləri, tibb işçiləri olduqca təmiz qəlbə, pasientə həssaslıqla yanaşmağa meyilli idilər. Onlar Sultan həkimdən çox şey öyrənmişdilər. Lakin, heç kəs həkimliyin peşəsini onun qədər sevdirə və təbliğ edə bilmədi. Onun bütün davranışları, danışığı, hərəkətləri sanki, bu peşəni reklam etməyə yönəlmişdi. Orta məktəbi əla və yaxşı qiymətlərlə bitirənlər ilk növbədə Sultan həkim kimi olmaq istəyirdilər. Əgər keçən əsrin 50-ci illərinin əvvəllərində Sultan həkimdən başqa daha iki nəfər zəngilanlı: Üdgün kəndindən Ələkbər Məmmədov[165], Qıraq Müşlan kəndindən Gülüş Əsədov[166] ali təhsilli mütəxəssislər idisə, sonradan bu rəqəmlər yüksək artımla çoxaldı. Mən 1955-ci ildən üzübəri yadımda qalan bəzi rəqəmlərlə sizi tanış etmək istəyirəm.

Ələkbər həkim bir müddət Mincivan[167] qəsəbə Dəmiryolu Xəstəxanasında[168] baş həkim işlədikdən sonra həkimlik fəaliyyətini Bakı şəhərində davam etdirdi. Gülüş həkim isə elmi iş götürərək Bakıda yaşamış və tibb elmləri namizədi alimlik dərəcəsi adı almış, neyrocərrah kimi fəaliyyət göstərmişdir.

1954-1955-ci tədris ilində Pirçivan kənd orta məktəbini əla qiymətlərlə bitirən Məmmədova Səmayə İsa[169]qızı Azərbaycan Dövlət Tibb İnstitutuna daxil oldu. O, ali məktəbi bitirdikdən sonra tələbə ikən könül verdiyi Tovuz rayonundan olan Nəsib[170] həkimlə ailə qurdu və ömrü boyu həmin rayonda işlədi, tərbiyəli

övladlar böyütdü. Yeri gəlmişkən Milli Məcslisin[171] üzvü Arzu Nağıyev[172] onun oğludur.

Qıraq Müşlan kəndindən əllinci illərdə Əşrəf Əsədov, Nuşirəvan Cəfərov, Ələsgər Vəliyev, Mehman Süleymanov[173] Azərbaycan Dövlət Tibb İnstitutunun tələbəsi oldular.

Altmışıncı illərdə Zəngilan Qəsəbə Orta Məktəbindən[174] Rasif Fərəcov[175] (o zəngilanlı ilk ali təhsilli əczaşı idi) Səltənət Mehrəliyeva, Səmayə və Yavər Məmmədovlar, Cahangirbəyli sovetliyindən Quliyevlər ailəsindən Vəli Quliyev[176], bacısı Züleyxa [177]həkimlik ixtisasına yiyələndilər.

1964-1965-ci dərs ilində Zəngilan kənd orta məktəbinin məzunlarından (dirtektor Yadulla Hacıyev[178] idi) Teyyub Orucov[179], Sücəddin Quliyev[180], Habil Ağayev [181] (onu Vaqif adlandırırdılar), Əli İsmayılov[182], Qulu Quliyev [183] Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul oldular. Bu siyahını davam etdirsək 100 rəqəmini ötər. Onların sırasından onlarla tibb elmləri namizədi yetişdi. İstisnasız demək olar ki, peşə seçimində hər bir abuturiyentin, onların valideynlərinin tibb sahəsinə hədsiz maraqları var idisə, burada Sultan həkimə bənzəmək faktoru da əsas rol oynayırdı. Zəngilanda ali təshsilli həkimlərin sayının artması hamıdan çox Sultan Vəliyevi sevindirirdi.

Artıq o, tək deyildi. Onun bacarıqlı davamçıları yetişirdi. Onların bəziləri xeyli püxtələşdikdən sonra Bakıya, Sumqayıta köçəndə Sultan həkim həm kövrəlir, həm də sevinc hissləri keçirirdi. Nuşirəvan Cəfərov, Ələsgər Vəliyev, Tofiq Bağırov, Namiq Məmmədov[184], Sabir Qəniyev[185], əslən Cəbrayıl rayonundan olan Rəhman Quliyev Zəngilandan gedəndə Sultan Vəliyev kədərlənmişdi ki, belə işini mükəmməl bilən həkimlər rayondan aralı düşürlər, sevinirdi, fərəh keçirirdi ki, onlar daha böyük şəhərlərdə daha böyük vəzifələrə təyinat alırlar.

Onlardan Ələsgər həkim, Rəhman həkim və Namiq həkim aspiranturanı bitirib tibb elmləri namizədi alimlik dərəcəsi elmi

adı aldılar. Tofiq Bağırov Sumqayıt şəhərində səhiyyə sahəsində rəhbər vəzifədə çalışdı.

Bir neçə il bundan əvvəl Bakı şəhərindəki hüzr məcslislərindən birində Ələsgər həkim, Salam Cavadlı[186] və mən yan-yana oturmuşduq. Ələsgər həkim Sultan həkimin insani keyfiyyətlərindən danışır, onun qayğıkeşliyindən, mədəniyyətindən, qonaqpərvərliyindən, tabeçiliyindəki işçilərlə münasibətlərindəki söhbətdən doymurduq.

Söhbətin sonunda o bildirdi ki, Sultan həkim hər birimizi yüksək təntənə ilə, ziyafət verməklə uğurlar diləməklə, yola salardı. Mənim özümü də 1969-cu ilin senytabr ayının 13- də Bakıya yola salarkən ənənə üzrə ziyafət təşkil etdi. Aspiranturada oxuduğuma uşaq kimi sevinirdi. Ziyafətdən sonra o xəstəxanaya məxsus «Moskviç»[187]markalı maşını özü sürərək məni Mincivana apardı. Yolda qəzaya uğradıq, xöşbəxtlikdən heç kim zədə almadı. Onun yerini heç birimiz verə bilmədik.

On ilə yaxın Azərbaycanın baş infeksionisti işləmiş Ələsgər Vəliyev danışdıqca mən onun 17-18 yaşlarındakı gənclik illərini gözümün önünə gətirirdim. Evimiz meşə idarəsinə yaxın idi. Bir gün meşəbəyi işləyən Qıraq Müşlanlı Cəfər dayı [188](Cəfərov Bəxtiyarın[189] atası) 5-6 nəfəri meşədən eşşəklə odun gətirən yerdə tutmuş, onların sicim və dəhrələrini alıb, özlərini də meşə idarəsinə gətirmişdi. Onların arasında Ələsgər Vəliyev də var idi.

Başqa bir fakt. Böyük qardaşım Şamı (onun əsil adı Şamil idi) Bağırov İpək idarəsində[190] baş mühasib işləyirdi. Üçüncü, ya da dördüncü sinifdə oxuyurdum. Məqsədim qardaşımdan «cib xərcliyi» almaq idi. Olduqca gözəl görkəmə malik, Ələsgər Vəliyevi orada görmüşdüm. O, mövsümi fəhlə şləyirdi, əlində də fizika kitabı vardı. Baramalar Sempliksdə[191] bişən vaxt o iki saatlıq fasiləsindən istifadə edib ali məktəbə hazırlaşırdı. Bu iki faktı ona görə yada salıram ki, Ələsgər Vəliyev olduqca çalışqan, zəhmətkeş, həmdə ev işlərində valideynlərinə kömək edən bir insan kimi

tanıyırdım. Sultan həkimin belə insanlara ehtiramı da təbii idi.

Başqa bir fakt. Zəngilanlılar onlara xidmət edən ağ xalatlıları yüksək qiymətləndirirdilər, hər bir həkimi tibb üzrə professor səviyyəsində görürdülər. Əgər Sultan Vəliyev, Alı Cəfərov. İskəndər İskəndərov, Qaçay Hüseynov, Əli Əliyev və bir neçə nəfər həkim vaxtında Bakıya aspiranturaya getsəydilər yəqin ki, onlar sonralar Azərbaycanın tanınmış tibb alimləri olardılar.

Məcburi köçkünlük illərində həmyerlilərimiz bunu həmişə hiss edir, həm də yekdilliklə təsdiq edirdilər.

Adlı-sanlı həkimlərimizin demək olar ki, hamısı kasıb, kəndli ailələrindən çıxmışdı. Onların tərcümeyi-hallarında «kolxozçu ailəsində anadan olmuşam» cümləsi yazılıb.

Mən Sultan həkimi tanımadan kiçik yaşlarım olanda onun atası Kərbəlayi Musanın adın eşitmiş, özünü görmüşdüm. Yaz vaxtı idi, çayların dəli-dolu zamanı məhəlləmizdə hay düşdü ki, Oxçuçayı[192] Malatkeşn kəndindən bir nəfəri aparmış, onu zorla xilas edib bizim küçə ilə üzüqoylu, başı bizim evə tərəf (dolayı qarnı üstə uzadaraq) atın üstündə ağzı yuxarı xəstəxanaya aparırdılar. Küçəyə çıxan yaşlı pirçivanlılar onu ölmüş bilib:

-Heyif Kərbəlayi Musadan, yaxşı kişi idi, bəziləri isə Sultan həkimin atasıdır, deyirdilər. Deyəsən o vaxt Sultan həkim baş həkim işləmirdi, xəstəxanada da tibb maşını yox idi. Kəlbəlayı Musa dayı da o hadisədən sonra xeyli yaşadı. Sultan həkimi orta məktəbin ibtidai hissəsində oxuyarkən tanıdım. Pambıq yığımı vaxtı idi. Xəstəxananın kolxoz idarəsinə tərəf həyətində 30-40 nəfər məktəbli ayaq üstə dayanmışdı. Onlar Sultan həkimin əlindəki dəftər boyda kiçik bir kitabdan oxuuduğu parazitlər, soxulcan və kəpənək qurdları haqqındakı məlumatları dinləyirdilər. Üç-–dörd cümlədən sonra Sultan həkmim kitabçanı malatkeşinli Mübariz Həsənova[193] verərək:

-Yaxşı olar ki, siz askaridlər barədə, onların yaranma səbəbləri, insan orqanizminə ziyanları barədə öz məktəbli yoldaşınızdan

eşidəsiniz- dedi.

Mən adətim üzrə kolxozla xəstəxananı ayıran divarın üstündən bunları görür və dinləyirdim. Məktəblilər Pirçivan kənd orta məktəbinin şagirdləri idilər.

Sonralar xəstəxananın həkimləri müntəzəm olaraq rayonun kəndlərini gəzir, əhali arasında profilaktik işlər aparırdılar. Bu xəstəliklərin vaxtında aşkar edilməsi, onların yayılmaması, qarşısının alınması, bəzilərinin yerində müalicə edilməsi sahəsində ən mükəmməl tədbirlərdən sayılırdı.

Bir dəfə Məlkili kəndində böyük bacımgildə olarkən günorta vaxtı bacımın həyat yoldaşı, Lenin adına kolxozun sədri Hüsü Hüsüevlə bərabər İskəndər həkimin, Tahirə[194] həkimin, Əfşan həkimin, tibb bacısı Durna Rəhimovanın və Şərqiyyə Rzayevanın[195] onlara gəldiyini gördüm. Kolxozun ərazisindəki kəndləri gəzdikdən sonra Hüsü müəllim onları zorla evlərinə gətirdi, heyvan kəsdilər, yemək-içmək vaxtı bildirdi ki, baxmayaraq ki, İskəndər həkimin atası da bu kənddə yaşayıb, lakin sədr olduğum kolxozun zəhmətkeşlərinin sağlamlığı qayğısına qalanlara mən qulluq göstərməliyəm.

Həkimlərimiz məqsədyönlü fəaliyyətləri sayəsində el hörməti qazanmışdılar. Əlbəttə, bu hörmətin, bu nüfuzun qazanılmasında Sultan həkimin təşkilatçılığı mühüm rol oynayırdı.

Təxminən, 60 il bundan əvvəl Sultan Vəliyevin nəyə qadir olduğunu görmüşəm. Bu elə bir hadisə idi ki, ona nə kinolarda, nə bədii ədəbiyyatlarda, nə də ki, dərslərdə rast gəlməmişdim.

Məhəlləmizdəki Oktyabr[196] küçəsində çiling-ağac[197] oynayırdıq. Birdən xəstəxananın QAZ 51[198] markalı narıncı rəngli təcili tibb Yardım maşını sürətlə, siqnal verə-verə Pirçivan dəmiryolu stansiyasına tərəf şütüyürdü.

Hay düşdü, çox adam yuxarı məhəllədən yüyürərək stansiyaya tələsirdi. Biz də bu axına qoşulduq. Deyirdilər ki, parovoz[199] adam vurub. O, zamanlar dəmiryolunda teplovoz[200] yox idi. Qara

qatarlar[201] işləyirdi. Hadisə yerinə yaxınlaşdıq. Sonralar dəmiryolu mağazası tikilən binanın ön tərəfində relslərin arasında bir qadının ayağının birinin dizdən yuxarı kəsilərək özündən təxminən yarım metr aralı düşdüyünü, digər ayağının, isə kəsilərək uzun boğaz corabından sallandığını gördük. Çox dəhşətli mənzərə idi. Qadın isə bizim evlə üz-üzə yaşayan, çox hörmətli, olduqca mehriban, həm kasıb, həm də qonaqpərvər Sayad[202] xala idi, taksi sürücüsü Humayın[203] nənəsi, Sucəhətin[204] anasıydı. Məni hönkürtü tutmuşdü, amma yaxına da buraxmırdlıar. O, hələ ölməmişdi, sifətcə qarabəniz olan Sayad xalanın rəngi getdikcə çoxlu qan itirdiyindən saralmağa başlamışdı. Əlləri ilə, barmaqları ilə iki işarəsi verirdi, tez- tez əllərini gözlərinə aparırdı. Sultan həkim qəhərli-qəhərli Sayad xalanın demək olar ki, yarım bədənini qucağına götürərək maşındakı xərəyə qoydu. İkinci dəfə geri qayıdaraq yerdəki kəsili ayağı da ora qoyaraq sürücü Muxtar Həsənova[205] tez elə xəstəxanaya çataq dedi.

Hadisə yerində bildik ki, işarə ilə iki deyəndə kürəyinə şəllədiyi az yaşlı nəvəsi Sarabəyimi[206] və qucağındakı köhnə Pirçivanlı Ağəmmədov Muxtarın [207] kiçik qızını soruşurmuş.

Hər iki azyaşlı salamat qalmışdılar. Qonum-qonşu hamısı xəstəxananın həyətində toplaşmışdı. Gecə yarı Sayad xala gözlərini əbədi yumdu. O zamanlar Sultan həkimin 34-35 yaşı olardı.

Çox şəxsiyyətli, həm də səliqəli idi, nə geysə ona yaraşırdı. O, Sayad xalanı qucağına alıb maşına qoyanda üstü bütün qana bulaşdı. Hadisə yerinə gələndə özü ilə heç bir köməkçi həkim və ya feldşer gətirməmişdi, orada heç sürücüyə də kömək üçün ağız açmadı. Bax! Zəngilan səhiyyəsinin Sultanı belə idi. Mən bu hadisəni olduğu kimi qələmə alarkən çox sıxıntılar keçirdim.

Bunun bir sıra səbəbləri vardı. Lap kiçik yaşlarımdan ilk, tanıdığım, səslərini eşitdiyim Sayad xalagilin ailələri idi. O zamanlar Pirçivanda heç bir adamın həyətləri çəpərli deyildi. Sayad xalanın əri Məmmədcəfər[208] dayı çox məzəli kişi idi. Öz həyətlərindən

məni çağırar, başa düşmədiyim suallar verərdi. Anam da sağ idi (o, 1951- ci ildə mən dörd yaş yarımlıq olanda haqq dünyasına qovuşdu. Allah bütün ölənlərimizə rəhmət eləsin). Atam və anamı gülmək tutardı.

Məmmədcəfər dayı sərbəst yerimək üçün sağ və sol qoltuq ağaclarından istifadə edərdi.  Yəqin ki, müharibə (1941-1945-ci illər) iştirakçısı idi.

Mincivandan Kafana[209] gedən «qara qatar» Məliklidəki «Bülbüllü»[2108] dayanacağına çatha-çatda üzüyuxarı yoxuş olduğundan surəti azalar, onun tez-tez «kuf-kuf» u zəifləyər, yavaş-yavaş «kuf-kuf»la əvəz olardı. Məmmədcəfər dayı da bunu eşidəndə:

-«Parovoz məni köməyə çağırır: -Məmmədcəfər, daldan bas! Məməmədcəfər, daldan bas»! deyərək gülərdi. Sayad xalanın böyük oğlu Ramazanın da[211] ölümü qara qatarla bağlı idi. O da qatarın altına düşmüşdü. Sanki «qara qatar» bu ailə üçün bir  «qara kağıza»[212] çevrilmişdi.

Sayad xala soyuq aylarda böyük bir qazanda əriştə [213] bişirər, ailəmizin bütün üzvlərini evlərinə dəvət edərdi. Süfrəsi həmişə qonaq üzün açıq olan bu kasıb, mərd qadının bişirdiyi əriştənin dadı –tamı indi də damağımdadı. Əlbəttə kolxozda baş hesabdar işləyən böyük qardaşım Şamı həmişə bu ailənin qayğısına qalardı. Belə bir qonşunu faciəli surətdə itirmək ailəmiz üçün ağır idi. Sayad xalanın dəfnində əsas məsələləri atam və qardaşım həll etdilər.

Bu hadisə Sultan həkimi zəngilanlılar üçün yenidən kəşf etdi, onun yüksək nüfuzu daha da artdı. Onun bütün göstəricilərə görə buna mənəvi haqqı vardı.

Keçən əsrin 70-ci illərinədək bədnam qonşularımz, Sav[214], Şeşkert, Kilsə, Hənd, Şıxovuz, kəndlərinin erməniləri Qafan şəhərinə nəqliyyat yolları olmadığına görə Zəngilan xəstəxanasının həkimlərinin xidmətindən yararlanırdılar. Onlar hətta Kafana, İrəvana[215] getmək üçün atla, qatırla Pirçivana gələr, oradan dəmir-

yolu vasitəsi ilə yola düşərdilər. Bu altmışıncı illərin axırlarına, Savdan Kafana rahat avtomobil yolu çəkilənədək davam etdi.

Həmin müddətədək stomotoloji xidmətdən-stasionar müalicəyədək bütün tibbi prosedura həkimlərimiz tərəfindən aparılırdı. Bəzən diş ağrısına görə gecə vaxtı Pirçivana gələn ermənilər rəhmətlik İsmixan Xudiyevin yaşadığı Üdgün kəndinə gedirdilər. Şeşkert kəndindən olan Zavan adlı çoban on günədək xəstəxanada müalicə olundu. Əlbəttə bizim həkimlər humanizm prisiplərini, «Hippokrat andnı» [216] üstün tutaraq onların müalicəsi üçün əllərindən gələni əsigəmirdilər.

Görəsən, onlar da belə edirdilərmi?

1963-cü ilin yanvar ayının 4-dən 1963- cü ilin iyun ayının 30-na dək Qubadlı rayonu ləğv edilərək (Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müvafiq fərmanına əsasən) Zəngilan rayonuna birləşdirilmişdi. Bir ilyarımlıq dövrdə Zəngilan rayon birləşmiş mərkəzi xəstəxanası daha çox pasientə qulluq etmək məcburiyyətində qalmışdı. Sultan həkimin rəhbərliyi altında tibb işçilərimiz həmin müddətdə demək olar ki, fədakarlıq göstərmişdilər. Qubadlı rayonu ərazicə Zəngilandan böyük, həm də daha ucqar da yerləşirdisə, bu çətinliyi aradan qaldırmaq böyük səy və təşkilatşılıq tələb edirdi.

Sultan həkiminn baş həkim işlədiyi otuz illik bir dövrdə həm respublika, həm də rayon mətbuatında yüzlərlə məqalələr dərc olunmuşdu. Həmin yazılar da bir qayda olaraq özünü və ya ailə üzvünü ölüm pəncəsindən xilas etdiyinə, yenidən həyata qaytardığına görə əksər minnətdarlıqlar Sultan həkimə ünvanlanırdı.

Zəngilan səhiyyəsində əhalinin sağlamlığına diqqət və qayğı ilə yanaşı, kollektiv üzvlərinin biri-birinə normal münasibəti də paralellik təşkil edirdi. Hər bir kəs həmkarını özünə doğma sayır, giley- güzar, qeybət, xəstədən nə isə ummaq onlar üçün yad idi.

Səhər-səhər ənənəvi «beş dəqiqəliklərdə» fərəh ilə qüsurlu hallar bir yerdə müzakirə olunar, günboyu hər kəsin görəcəyi işlər

müəyyən edilərdi. Heç kəs haqlı tənqiddən inciməzdi. Uzun illər müşahidəm və ictimaiyyətin verdiyi qiymətə görə belə qənaətə gəlirəm ki, Zəngilanda ən mehriban və təmiz kollektivlərdən biri, bəlkə də birincisi Zəngilan rayon Səhiyyə şöbəsinin işçiləri idi. Bunu Sultan həkimin adı ilə bağlamaq ən ədalətli qərar olardı. Əgər baş həkimlik hər il seçki ilə keçirilsəydi, kollektiv yüz faiz ona səs verərdi. Rayon Partiya komitəsinin Plenumlarında, RİK-nin iclas və sessiyalarındakı Sultan Vəliyevin çıxışları öz məzmunu, aktuallığı ilə fərqlənər, geniş maraq doğurardı. Gənc yaşlarımda Mədəniyyət[217] şöbəsində və Pionerlər evində[218] işləməyim mənə bu yığıncaqları yaxından izləmək imkanı verirdi. Bu tədbirlərin heç birində rayon rəhbərliyi tərəfindən Sultan həkimə qarşı irad və tənqidə rast gəlmədim. Əksinə, onun iş üslubunun yayılması tövsiyə olunur, məruzə, çıxış və qərarlarda bu öz əksini tapırdı. Sultan həkimə olan rəğbətim o qədər böyük idi ki, işdən kənar yerlərdə, xeyir və şər mərasimlərində onun davranışlarından, söz-söhbətlərindən həmişə faydalanmağa, öyrənməyə çalışardım. Bu «peyğəmbər» sifətli, «peyğəmbər» əqidəli adam insanlarda xoş aura yaradır, onları düzgün istiqamətə yönəldən əməllərin sahibi idi. Sultan həkimin özündən yaşca böyük bibisi oğlu Məhəmməd Heydərovla, dayısı oğlu Əbil Həsənovla sıx əlaqəsi, çox vaxt xeyirdə -şərdə onlarla birgə iştirakı, hər ikisinin məsləhətlərinə əməl etməsi də onun həyatında mühüm rol oynayırdı. Adların çəkdiyim hər iki şəxs Böyük Vətən Müharibəsində Zəngilanın adını yüksəklərə qaldırmış, doğma yurda bir sıra orden medalla təltif olunmuş zabit kimi qayıtmışdılar. Məhəmməd Heydərov yüksək partiya və sovet işlərində (raykomun katibi, RİK –nin sədri) rayonun bir sıra idarə və müəssisələrinə, kolxoz və sovxozlarına rəhbərlik etmişdir.

Onun qaynı Əbil Həsənov da müharibədən sonra raykomda (MTS[219] üzrə), katib, II katib, RXMŞ[220]-nin müdiri, RİC-nin sədri, Əhaliyə məişət xidməti kombinatının direktoru[221], məktəb

direktoru, «Bilik»[222] cəmiyyətinin sədri kimi mühüm vəzifələrdə çalışmışdır.

Hər iki şəxs barədə vaxtı ilə qəzetlərdə, kitablarda xeyli materiallar dərc edilmişdir. Onları yaxından tanıdığım üçün həmin yazılara aşağıdakıları əlavə edirəm

-Məhəməd Heydərovu 1959-cu ildə avtomobil qəzasına düşməzdən 5-6 il öncə tanıyırdım. O, sözü bütöv, heç kəsdən çəkinməyən, pəhləvan cüssəli, cəsarətli bir şəxs idi. Mənə elə gəlir ki, Məhəmməd Heydərov bütün ömrünü hərbə sərf eləsəydi Azərbaycanın ən böyük hərbi xadimlərindən biri ola bilərdi. Ona generallıq çox yaraşardı. Pirçivanda stadion məhəlləsində[223] (1saylı orta məktəbin[224] ətrafı) əhaliyə verilən və Malatkeşin kəndində sulu sahədə kolxozçulara paylanan torpaqların qərarlarını M. Heydərov imzalamışdı**.** Əbil Həsənova gəlincə isə elə bilirəm ki, yüksək mədəniyyətli, intellektual səviyyəsi ilə seçilən bu insan ideoloji iş üçün yaranmışdı. Onun şəxsiyyətində bir diplomatlıq səriştəsi cəmlənmişdi. Həm rus dilini, həm də siyasəti yaxşı bilirdi. Tarix və mədəniyyət sahəsində mühüm məlumatlara malik idi. Düşüncəmə görə, o daha yüksək ali vəzifələrdə çalışmağa layiq idi. Zəngilanda yerli rəhbər kadrlara çox böyük ehtiyac olduğu zamanlarda Malatkeşin kəndi bu üç şəxsin timsalında bunu ödəyə bilmişdi. Onlar ən çətin illərdə, həmçinin dinc quruculuq dövründə Zəngilan üçün yaşamış, rayonun ictimai-siyasi və mədəni həyatında silinməz izlər qoymuşdular. Hər üçü rəhbər vəzifələrdə çalışsalar da insanlara, xüsusilə özlərinə tabe olanlarla rəftarlarında ölçü-biçini gözləyərdilər. Mən rayon ictimaiyyətindən onlarla bağlı bir xoşagəlməz söhbət və ya qarşıdurma eşitmədim. M.Heydərov bəzən vəzifəsindən asılı olmayaraq qəbahət törədənlərə sərt sözlər desə də, heç kəs onun üzünə qayıtmazdı. Yadıma gələndən onların bizim ailəmizlə isti münasibətlərini görmüşəm. 1950-ci illərin ortalarında Əbil Həsənov qardaşım Şamını kirvə tutmuşdu. Böyük oğlu Akifi[225], sonrakı illərdə Etibarı[226] və Əfqa-

nıstanda şəhidlik zirvəsinə ucalan Elnuru[227] da Şamının qucağına qoymuşdu. Çox yığcam şəkildə keçirilən bu məclislərdə M.Heydərov, S.Vəliyev, Xansuvar Həsənov[228], Yadulla Vəliyev həmişə iştirak etmişdilər.

O dövrlərdə kirvəlik ən yaxın qohumluq sayılırdı. Bu əsil dədə-baba kirvəliyi idi. Rykom katibi Əbil Həsənovla Pirçivandakı kolxozun baş hesabdarı Şamı Bağırovun səmimi dostluğu kirvəliyə çevrilmişdi. Təxminən, 20 il sonra bu mehriban kirvəliyə başqa bir qohumluq da əlavə olundu. Sultan həkimin bacısı qızı Şəfiqə[229]xanım bacımın oğlu Yusif[230] müəllimlə 1975-ci ildə ailə həyatı qurdular. Toydan əvvəl keçirilən elçilikdə atam Kərim[231], Hüsü müəllim, Şamı, Qurban Mustafayev[232] və Hüsü müəllimin qardaşı Əhməd Hüsüyev[233], qız tərəfdən isə Bəhmən Mikayılov[234], Məhəmməd Heydərov, Əbil Həsənov, Sultan həkim və qardaşı Yadulla iştirak edirdi. Bəhmən dayının xoş gəldimindən sonra Sultan həkim:

-Mahmud[235] müəllim, nəyiniz varsa yığın süfrəyə. Allah mübarək eləsin, xöşbəxt olsunlar! Biz illər boyu duz çörək kəsdiyimiz insanlarla qohumluğumuzu təzələyirik, görünən dağa nə bələdçi, demişdi.

Məclisin şirin yerində Əbil müəllim bu günümüz üçün çox önəmli olan bir hadisəni söhbət eləmişdi.

Əllinci illərdə Şamı, Sultan, mən və Zəngilan rayon milis şöbəsi rəisi İbrahim Poladov[236] (o əslən Qubadlı rayonundan idi) Kacarandakı[237] turş suya istirahətə getmişdik. Yemək-içmək zamanı ermənilər bizə söz atır, sataşırdılar. İş o yerə gəldi ki, onların bir neçəsi Poladovun üstünə tökülüşüb onu döyməyə başladılar. Bizim onları sakitləşdirmək cəhdimiz bizə də bir neçə təpik və yumruq dəyməklə nəticələndi. Şamının cəsarəti, cəldliyi, əldən itiliyi üç-dörd erməninin yaralı vəziyyətdə yerə sərilməsi bizi də hərəkətə gətirdi. Artıq ayaq üstə olan ermənilər qaçmağa başlamışdılar. Mülki formada olan Poladov da özünə gəlmişdi.

Və beş-altı ermənინin dərsini verdi. Orta yaşlı, səliqəli geyinmiş bir erməni Şamıya yaxınlaşaraq təmiz Azərbaycan dilində:

-Sən bir narkom kimi oğlansan, güzgüdə heç özünə baxmısan? Sən də qoşulmusan bunlara. Sənə belə işlər yaraşarmı? Şamı da bizi göstərərək:

-Bu rayonun milis rəisidir, bu raykomun katibidir, bu da rayonun baş həkimidir. Onlarla belə rəftar etmək sizə yaraşarmı?-sualın verdi. Bundan sonra həmin erməni xahiş-minnətlə yenidən süfrə açdırdı və bizdən üzr istəyərək yaxşı bir barışıq məclisi qurdu. Mən oğlum Afik üçün kirvəni o zaman tapdım, Sultanla da fikirlərimiz üst-üstə düşdü və bu kirvəlikdən həmişə iftixar hissi duyuram.

Yusif müəllimlə Şəfiqə xanımın evlənməyi bizim Əbil müəllimlə, Sultan həkimlə, M.Heydərovla çox mehriban münasibətlərimizə əlavə bir dəyər verdi. Yusif müəllimin böyük oğlu Elnur[238] M.Heydərovun qardaşı oğlu Heydər[239] müəllimin qızı ilə xöşbəxt bir ailə qurdu.

Sultan həkim ailəcanlı adam idi. Onun əvvəlki həyat yoldaşı Anaxanım[240] həkimlə mehriban münasibətləri vardı, lakin uzun illərin ailə həyatına baxmayaraq onların övladları olmadı. Üstəlik də Anaxamın həkim dəfələrlə Sultan həkimə Bakı şəhərinə köçməyi təkilif edərdi. Əlbəttə Sultan həkim Bakıda daha da inkişaf edərdi. O, bu təklifi qəbul etməyib Zəngilanda qaldı. Xeyli müddət tənha yaşadı. M.Heydərovun, Ə.Həsənovun təkidi ilə, yenidən əslən Bartaz kəndindən olan Gövhər[241] adlı gözəl bir xanımla ailə həyatı qurdu. Qismət Allahdandır. Kədərli də olsa 40 illik ailə həyatında onlara «ata», «ana» deyən dünyaya gəlmədi. Bu ailə öz sıxıntılarını heç kimə yükləmək istəmədilər. Qohum-qardaşın, dost-tanışın balalarını öz övladları kimi sevdilər. Hər ikisi ağılı-düşüncəli, Allahın onlara verdiyi taleylə barışan idilər. Mən onları bütün xeyirdə-şərdə bir yerdə görərdim.

Yetmişinci illərdə Zəngilan şəhərində fotoqraf Abas[242] kişinin oğlu Asifin[243] toyunda masabəyi, kənd Zəngilanlı Ağaqulu[244] kişiyə sağlıq üçün söz verdi. Ağaqulu kişi ayağa qalxaraq bəyin əvəzinə orada iştirak edən Sultan həkimə Allahdan övlad qismət dilədi. Məclisdəkilərin demək olar ki, hamısı ayaq üstə onun çıxışını alqışladı. Sultan həlim abırlı-həyalı, həm də utancaq adam idi, o, başın aşağı salıb pul kimi qızarmışdı.

Keçən əsrin yetmişinci illərinin ikinci yarısında rayonumuzun səhiyyə işçiləri öz peşə bayramlarını Bəsitçay[245] vadisində keçirirdilər. Sultan həkim məni də musiqiçi dəstəsi ilə ora dəvət eləmişdi. Stol, stul, qab-qacaq, bir sözlə məclis üçün nə lazımsa qaydasındaydı. Sultan həkimin məsləhəti ilə məclis «İsmayıl bulağı»[246]ndan bir qədər yuxarıda, nisbətən sakit bir güşədə, çayın qırağında quruldu. Yaxınlarda bulaq da vardı. Məclis iştirakçılarının sayı əlli nəfərdən yuxarı olardı. Təminat sahəsində də bolluq idi. Belə məclislərdən ən çox xoşuma gələn «Mətbuat günü»[247]idi. Mürsəl müəllim həmin gün heç kimin xətrinə dəyməzdi. Sultan həkimdə də belə bir mədəniyyət və alicənablıq gördüm. Məclisin açılışında o, kollektivi təbrik etməklə yanaşı bizim də şərəfimizə xoş sözlər dedi, badə qaldırdı. Həkimlərə, feldşerlərə, sürücülərə tam sərbəstlik verilmişdi, hamı eyni hüquqa malik idi. Sultan həkim, Alı həkim və İskəndər həkim məclisin baş tərəfində əyləşmişdilər. Məclisdəkilər ilk növbədə Sultan həkimə xoş arzularını bildirdilər. Bu arzular həm təmiz, həm də ürəkdən gələn idi.

Artıq bir çoxları rəqs etməyə başlamışdı. Alı həkimin rəqsindən olmazdı, o ağırlıqda adamın sümükləri də oynayırdı.

Arada İskəndər həkim mənə: -Asif müəllim, bir vals çalın, dedi. Və Qıraq Müşlanlı sürücü Cahangir Kərimovla[248] rəqs etməyə başladı. Hər ikisi gülürdü, nə vəzifə, nə də yaş fərqi bilinmirdi. Məclis olduqca şən keçirdi. Hava isti olduğundan Bəsitçayda çimmək də yaddan çıxmadı. Sultan həkimlə İskəndər həkim çaya girməsələr də Alı həkim hamıdan əvvəl çayda çim-

məyə başladı. Biz də onlara qoşulduq. Üç-dörd nəfər istisna olmaqla hamının kefi yuxarı idi. Hətta mənimlə münasibəti əla olan tay-tuşlarımdan biri dəyişik salaraq öz şalvarının əvəzinə mənim şalvarımı geyinməyə başlayanda müvazinətini saxlaya bilməyib suya yıxıldı.

Sultan həkim kənardan bütün bunları seyr edərək gülürdü, amma, özünü görməməzliyə vururdu. O, çox diqqətcil idi kollektivdə iki nəfər həkimin (hər ikisi terapevt idi) aralarındakı sərinliyi də bilirdi. Məclis vaxtı digər həkimlər kimi onların hər ikisini biri-birinə mehriban adamlar kimi təqdim elədi. Xəstəxananın bir neçə maşını ilə yanaşı həkimlərin bəzilərinin öz şəxsi maşınları da orada idi. Sultan həkim məclisin sonunda hər bir kəsin həmin maşınlarla evlərinə qayıtmasını təşkil elədi.

Sultan həkim əksər məclislərdə iştirak eləsə də, yeyib-içməyə bir o qədər meyilli adam deyildi. Böyük bacım Firəngiz[249] xanımın kiçik oğlu Elxan[250] əsgərlikdən gəlmişdi. Bu münasibətlə Hüsü müəllim Məlikli kəndində həyətindəki bağda yaxşı bir ziyafət təşkil eləmişdi. Qardaşım Şamı, Sultan həkim, İskəndər həkim (İskəndər həkimin əmisi qızı Sara[251] xanım Hüsü müəllimin qardaşı Əhmədin[252] yoldaşı idi) uşaqlıq dostum və qonşum Xürrəm Həsənovla [253]mən də orada idim. Xürrəmin mənimlə zarafatı vardı. Məclis qızışanda fikir verdim ki, Sultan həkimlə İskəndər həkim bizim zarafatımızdan həzz alırlar. Hərdən Xürrəmi tərpətmək üçün ona mən barədə suallar verirdilər. Bir qayda olaraq Şamı da, Yusif də Xürrəmin tərəfini saxlayırdılar. Sultan həkimlə İskəndər həkimə gülüş bəxş etmək hamı üçün xoş idi.

Sultan həkim doğulduğu Malatkeşin kəndini dünyalar qədər sevirdi. İşğaldan üç-dörd il əvvəl Malatkeşində «Kamaz»[254] sürücüsü Cəmilin[255] oğlunun toyu idi. Sultan həkim toya bir az gecikmişdi. Məclisdən duranda o, bacısı qızının yoldaş Seyid Əli[256] ilə oynamağa başladı. O vaxt həkimin altmış beş yaşı olardı, ona bu yaşı vermək olmazdı. Çox şux və şən görünürdü. Rəqs edərkən

cəld hərəkətlərlə oturub-durma, ritmə uyğun qolları yana açma onun əlində «su içim» kimi idi. Bu peşəkər rəqqasların ifasını xatırladırdı. Belə rəqsləri aşpaz Çingiz Abışov[257] və Cəmil Mustafayev[258] də yaxşı bacarırdılar. Burasının da deyim ki, Sultan həkimi heç bir məclisdə belə rəqs edən görməmişdim, fikirləşirəm ki, bu doğma kəndə, doğma adamlara sonsuz məhəbbətdən irəli gəlirdi.

Aylar, illər ötdü. Sultan həmim təqaüdə çıxmalı oldu. O, hamıya nəsib olmayan uzun və şərəfli bir yol keçmişdi, alnı açıq, üzü ağ! Rayon rəhbəri Tofiq Mehtiyev[259]də Sultan həkimi layiqincə əvəz edə bilən bir kadr üzərində fikirləşirdi. O, düzgün bir variant seçdi. Geniş ictimayyətin iştirakı ilə baş həkimliyə namizədliyə alternativ qaydada bir neçə nəfər buraxıldı. Mədəniyyət şöbəsinin geniş tamaşaçı zalında  Gilətağ kənd xəstəxanasının baş həkimi işləyən Eldar Nəriman oğlu Babayev böyük səs çoxluğu ilə qalib gəldi. Zəngilanın yeni baş həkimini ilk təbrik edən Sultan həkim oldu. Eldar həkim nəyə görə bir o qədər səs topladı? O işlədiyi ərazidə böyük hörmət qazanmışdı. Həm bir həkim,  həm də bir xeyirə-şərə yarayan bir insan kimi. Onun mədəniyyəti,  sadəliyi hər hansı bir məsələyə düzgün qiymət verməsi hamıdan çox öz karına gəldi.  Öz gözlərimlə gördüyüm o idi ki, Gilətağdan, Vənətlidən, Şamlıdan, Vənətli Muğanlısından (Zəngilanın kəndləri-Ə.S) səsvermədə iştirak etməyə gələnlərin çoxu zalda boş yer olmadığından küçəyə toplaşmışdılar. Eldar Babayev baş həkim işlədiyi dövrdə  Sultan həkimin həm Zəngilanda, həm də Bakıda həmişə yolunu gətirdi, onu öz ağsaqqalı, yol göstərəni kimi hesab etdi. Zəngilanın işğalından sonra Sultan həkim şəxsi evi olmadığından vaxtı ilə Zəngilanda ən məsul vəzifələrdə çalışmış digər həmyerliləri Nəriman Ağayev[260] İdris Şıxəliyev, Hüsü Hüsüyev (Məlikli), Mürsəl Qocayev, Eldar Eyvazov[261], Şərif Bəşirov[262]  və başqaları kimi ümumi yataqxanalarda yaşamalı oldu. Sultan  həkim Bakı şəhərində yaşadığından onunla zəngilanlıların ən çox kompakt şəkildə müvvəqəti məskunlaşdığı Azərbaycan Dövlət

Neft Akademiyasının[263] Tələbə şəhərciyində tez-tez rastlaşırdıq. Rayon səhiyyə şöbəsinə oradakı korpuslardan 3-4 otaq vermişdilər. Digər korpusda ikinci mərtəbədə böyük bir zal Zəngilan və digər məcburi köçkün rayonların sərəncamında idi. Burada əsasən dəfn mərasimləri keçirilirdi. 1996- cı ildə (mart) Zəngilana yeni təyin olunmuş İcra başçısı Ələkbər Həşimovun[264] vaxtında oradan bir neçə otaq alındı. Bir dəfə 1996- cı ilin dekabr ayının 29-da Şamı, Sultan həkim və mən orada qarşılaşdıq. Həmin gün ulu öndər Heydər Əliyevin[265] prezident aparatında zəngilanlılarla görüşü keçiriləcəkdi. Hər ikisi görüşdə iştirak edəcək nümayəndə heyətinin tərkibində idilər. Şamının təklifi ilə yüngülvari bir qəlyanaltı eləmək üçün yataqxananın çöl tərəfindəki dönərxanaya[266] getdik. Şamının qonağı idik. Mənim o zamanlar yaxşı iştahım vardı, üç dönər yeyə bilirdim. Sultan həkim bir dönərin yarısın yedi, əlini salfetlə sildi, utandığımdan mən də bir dönərlə kifayətləndim. Onlar kifayət qədər vaxtları olduğundan keçmişlə bağlı maraqlı xatirələr danışırdılar, söhbət vaxtı ilə hər ikisi ilə dostluq eləmiş İbrahim Poladovdan düşdü, onu çox tərifədilər, sədaqətli insan olduğunu dedilər. Şamının dedikləri:

-Kolxozda baş hesabdar işləyən vaxtım idi. Günortya yaxın həm qonşumuz, həm də qohumumuz milis serjantı Gülməmməd [267]məni işarə ilə çölə çağırdı, xəlvəti bir yerə çəkildik. O, mənə dedi ki, Poladov mənim sizə qohum olduğumu bilir, ona I katib Məmmədtağı Nağıyev[268] qəti tapşırıb ki, səni şərləməyə də qala həbs etsin, imkan var ikən aradan çıx!

M.Nağıyev sonralar Zəngilanla qohum oldu. Rəhmətlik Yadulla Hacıyev onun qızı Elmira[269] xanımla ailə həyatı qurdu. Mən onun pambıq planını doldurmaq üçün təklifini qəbul etməmişdim. Təklif də belə idi ki, on tondan çox əlavə pambıq yazılmalıydı. Kimin briqadasına, kimlər adına? Heç kəs bu saxta işə yiyə durmaq istəmirdi. Mən Xalq Təsərrüfatı İnstitutunun[270] qiyabiçi tələbəsi idim. Bakıya getmək üçün Poladovun məsləhəti ilə

Akara[271] dəmiryolu vağzalından qatara mindim. Məni tapa bilməyən M.Nağıyev kolxoz sədri Məmiş Cəfərova[272] təcili iclas çağırıb, məni işdən azad etməyi və yerimə də Şəfibəylidən[273] Haqverdi Ağalarovu[274] təyin etməyi tapşırıb. Heç bir iclas çağırılmadan onun əmri yerinə yetirilib. Sən saydığını say, gör fələk nə sayır? Təsadüfən üç gün sonra mən Bakıda M.Nağıyevlə rastlaşdım. Yayınmaq istədim. Onun qoluna girmişdilər, məni gördü, yanına çağırıb, əl tutdu və dedi:

-Məni bağışla, mən sizin rayonla vidalaşdım.

Doğrusu, pis oldum, səbəbini soruşdum. Dedi ki, bir neçə ailə üzvünü Kürdəmirdə[275] elektrik cərəyanı öldürüb. Ona baş sağlığı verdim. Rayona qayıdanda artıq Nəriman Ağayev II katib olduğuna görə I katibin səlahiyyətlərini yerinə yetirirdi. İnstitutdan gətirdiyim arayışı ona göstərdim. Ertəsi gün kolxozda N.Ağayevin özünün iştirakı ilə iclas çağırıldı, məni vəzifəmə qaytardılar, çoxları vəzifəsindən uzaqlaşdırılıb, şəxsi işlərinə yazılmaqla töhmət alanlar da oldu.

Şamını dinləyəndən sonra Sultan həkim də Poladov haqqında xoş sözlər dedi və əlavə etdi ki, o, kişi adam idi, görkəmcə də Göyçay[276] pəhləvanı Eldarı[277] xatırladırdı. Mən hiss edirdim ki, bu iki köhnə dost, köhnə qohum və bir az da boy- buxunda qırmızı yanaqda da bir-birinə oxşar şəxsiyyətlər həmin gün özlərini çox xöşbəxt hiss edirdilər, biri qız, digəri oğlan dayısı.

Bir dəfə Azərvaycan DNA-nın tələbə şəhərciyinə gedirdim. Dostluq kino-teatrının[278] yanında Sultan həkimlə rastlaşdım. O, aralıdan gülə-gülə mənə yaxınlaşdı. Hal-əhvaldan sonra nə isə demək istəyirdi, lakin ürəkdən gələn gülməyi buna imkan vermirdi. Axır ki, özünü ələ alıb mənim o vaxt «Zəngilanın səsi»[279] qəzetində «Doğma yurda qayıtmaq istəyinə boy verən Zəngilan lətifələri»ndən[280] qohumu İsmayıl Novruzovla[281] bağlı «Çörək ağacımızı»[282] deyirəm adlı lətifəni danışdı. Desəm ki, Sultan həkimi heç vaxt belə gülən görməmişdim, yəqin ki, səhv etmiş olmaram.

Belə bir gülüşü televiziyada möhtərəm Heydər Əliyevdə də görmüşdüm. Dünya siyasətçisi: -Bakılı oğlanlarla[283] görüşündə gülməkdən özünü saxlaya bilmirdi.

Sultan həkim 2010-cu ilin sentyabr ayında bizi birdəfəlik tərk etdi. Minlərlə adama şəfa verən loğman həmkarlarının səhv müayinəsindən əbədiyyətə qovuşdu.

Onunla unudulmaz görüşümdən əbədi bir xatirə kimi rəhmətliyin ruhu qarşısında baş əyməklə kitabımdakı «Çörək ağacımızı» deyirəm lətifəsini oxuculara təqdim edirəm.

Kalinin[284] adına kolxozun direktoru Novruzov İsmayıl kəndin mal nobatına getmiş oğlu Bahadura[285] günorta yeməyi aparır. Bahadur atasını görən kimi ona deyir ki, papa, indicə bir tülkü gəlib girdi bu yuvaya. Novruzov diqqətlə baxıb görür ki, yuvanın iki yolu var, pencəyini çıxararaq deşiyin bir tərəfini bağlayıb o biri tərəfə çör-çöp yığıb od vururlar. Tüstüdən boğulan tülkü pencək tıxanmış tərəfdən qaçıb canın qurtarmaq istərkən pencəyin qolu onun başına keçir, pencəyi də özü ilə qaçırır. Ata-bala özləri də əldən düşənəcən tülkünü qovurlar, amma tuta bilmirlər. Bahadur atasına deyir:

-Ay papa, onsuz da pencəyin çölə atılmalı idi, tay özümüzü öldürməyəcəyik ki. İsmayıl Noruzov:

-Ay zalım oğlu, pencəkdən deyiləm e... Partbilet [286] onun cibindədir, çörək ağacımızı deyirəm.

**Asif Bağırov. 23 dekabr 2020–ci il, Bakı şəhəri**

# 45 İL ƏRZİNDƏ 20-yə YAXIN GÖRÜŞ

Sovet hakimiyyətindən əvvəl qədim Zəngəzurun Araz, Bərguşad, Oxçu və Bəsit (Zəngilan rayonu ərazisindən axan çaylar) çayları arasında yaşayan bizim ulu babalarımızın yaşadığı bu ərazidə təhsilli adamları barmaqla saymaq olardı. Olanların da çoxu dünyəvi elmləri yox, Müqəddəs kitabımız olan **Qurani Kərimi** bilirdi.

Orta əsrlərin intibah dövrü bizdə deyərdim ki, XVIII-XIX əsrlərdə baş verdi. XIX əsrin sonu XX əsrin əvvəllərində isə zirvəyə ulaşdı. Düzdü lap orta əsrlərdə də bu xalqın dünya miqyasında tanınan Nizamisi[287], Füzulisi[288], Xətaisi[289], Nəsirəddin Tusi[290] və.s olub. Amma bunlar bu böyük xalq üçün azlıq təşkil edirdi. Məhz kapitalizmin inkişafı, Bakı neftinin dünya miqyasında üzə çıxması elm və mədəniyyətin də inkişafına təsir elədi. Yuxarıda qeyd etdiyim kimi bu ərazi elə bir coğrafi mövqedə yerləşir ki, qədim Azərbaycanın heç bir bölgəsində belə münbüt, ərazisindən daimi suyu qurumayın çayları yoxdur. Bilirsiniz ki, çay hövzələri həm zəngin olur, həm də ki, ticarət və karvan yolları üçün əlverişlidir. Məhz bu səbəblərdən bu ərazidə həm əhali sıx yaşamış, həm də ki, dünyanın və eləcə ə qədim Şərqin yaxın və uzaq ölkələri ilə ticarət əlaqələrində olmuşdur. Bunu isbat etmək üçün bir fakt qeyd etsəm, məncə kifayət edər. Ötən əsrin 60-cı illərində indiki Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində tapılan və eramızdan əvvəl Makedoniyalı İskəndərin[291] dövrünə təsadüf edən və onun adına olan sikkələr bunu təsdiq edər. Bu sikkələr bura təsadüfən gələ bilməzdi. Onları buraya oralardan gələn səyyahlar, tacirlər gətirmişlər. Bu barədə bu qədər.

Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra bu qədim ərazidə, qədim Pirçivan kəndinin yerləşdiyi yerdə bir inzibati qurum yaradıldı və ona Zəngilan adı verildi. Dünya bundan sonra bizləri bu ərazinin təmsilçiləri kimi tanıdı.

Sovet hakimiyyəti illərində Azərbaycan deyərdim ki, dünya mədəniyyətinə, elminə bir birindən dəyərli dahilər verdi. Elm sahəsində Yusif Məmmədəliyevi[292] Xudu Məmmədovu[293], İncəsənət sahəsində Üzeyirbəy Hacıbəylini (1885-1948)[294], Qara Qarayevi (1918-1982)[295] *, milliliyi ilə seçilən Fikrət Əmirovu (1922-1984)[296], sehrli çubuğu ilə Nyu Yorkun[97], Londonun[298], Moskvanın[299], Berlinin[300] konsert salonlarını lərzəyə gətirən Niyazini (1912-1984)[301]*, Moskvanın konsert salonlarını ağzına kimi dolduran, ecazkar səsin sahibi Müslüm Maqomayevi[302] (1942-2008)*, ədəbiyyat sahəsində Səməd Vurğunu[303](1906-1956)*, və s. kimi dühaları qeyd edərdim.

M.Maqomayev barədə bir əlavəni edim ki, bu adam Azərbaycana layiqincə xidmət elədi. Onun ecazkar səsi Moskva tamaşaçılıarını o qədər valeh etmişdi ki, digər xalqların xüsusən də böyük qardaşlarımızın nümayəndələrini kölgədə qoymuşdu. Nə etməli. Axırda bir çıxış yolu tapıldı və Müslümə iki il Moskvanın konsert salonlarında «oxumamaq» qadağası quyuldu. Getsin Sibirdə[304], Uşaq Şərqdə[305], Vladivostokda[306] oxusun.

Bu siyahını daha da uzada bilərik, amma mənim bu günkü yazacağım qəhrəmanlar bu qədim diyarın -zəngilanın adamlarıdı. İstərdim ki, onları sizlərə tanıdam.

Qədim Pirçivan kəndi Oxçuçayın sağ sahilində yerləşir. Bu çayın sol sahilində isə bir kənd var: Malatkeşin.

Mənim bu günkü qəhrəmanlarım mənz bu kənddən olan üç qohum barədədi. Onlar Məhəmməd Heydərov, Əbil Həsənov və Sultan Vəliyevdi. Əvvəllər mən bunların hər üçü barədə qəzet və kitablarda yazılar yazdım. Bu gün isə onlardan yaşca ən kiçiyi barədə geniş danışacağam. Dediyim kimi əsas qəhrəmanım onlardan yaşca ən kiçiyi olan, Zəngilanda yeganə «Respublikanın əməkdar həkimi» adı alan Sultan Kərbəlayi Musa oğlu Vəliyev barədə olacaq. Mən onun tərcümeyi halı barədə danışmayacağam. Bu barədə kitabın müxtəlif səhifələirdə oxuya bilərsiniz.

Mən onunla təmasda olduğum anları anlatmağa, təsvir etməyə çalışacağam. Onu necə gördüm, necə tanıdım və necə bir idi.

Mənim atam Zəngilan şəhərində yaşadı və orada da dünyası dəyişdi. Adi, necə deyərlər «qara fəhlə» idi. Ümumi yerlərə, çayxana və yeməkxanalara getməzdi. Xeyir işlərə çox getməz, amma hüzr yerlərinə gedərdi. Toya bəzən məni yollardı. Hüzr yerinə də bəzən Əli sən get deyəndə, həm anam, həm də ki, mən deyirdim ki, gedərəm amma, axı ora sənin yerindi. Sən dura-dura mənim ora getməyim hörmətsizlik kimi qarşılanar.

Məhz bu səbəbdən də mən də onun kimi çox tünlük yerlərə getməz, gedəndə də dindirməsələr dinməzdim, amma indi şükür Allaha tribuna versələr, saatlarla elimin dərdini anladaram.

Uşaq vaxtı vəzifəli adamları görəndə düşünərdim ki, görəsən, bunlara söz demək, barmaqla toxunmaq olarmı. Mənim üçün belə əlçatmaz insanlaradan biri bu gün danışacağım qəhrəmanım Sultan həkimdi.

Mən onu ilk dəfə deyəsən, 1961-ci ildə gördüm. Atam məni onun yanına aparmışdı. Üzr istəyirən, qarın nahiyyəmdə nə isə bir problem var idi. O vaxt həkimin kabineti indiki parkın yerində olan, bax bu binada (binanın şəkli kitabda verilib) girəcəkdə, 4 pilləli pilləkanı olan otaqda yerləşirdi.

O mənə baxdı və dedi ki, bir şeyi yoxdu böyüyəndə düzələcək

Burada istərdim ki, həkimi bir təsvir edim. Mənim gözümlə onu görməyənlər də yaxşı tanısın.

O, sifətcə bir az rəngli, yəni qızılı saçlı idi. Xüsusən qollarının tükü lap qızılı rəngə çalardı. Günəş şüası düşəndə isə sanki işıq saçardı. Həkimin qolunda qızıl saat var idi. Saatın qayışı da qızıldan idi. Günəş düşəndə həm tüklər, həm də ki, saat eyni rəngdə sanki işıq saçardı. Onun qolundakı tüklərlə saatın rəngi sanki bir ahəng təşkil edər, bir-birini tamamlardı.

## 2-ci görüş

Orta məktəbin haradasa VIII sinfində oxuyanda oğlan uşaqlarını aparıb tibbi komissiyadan keçirərdilər. O zaman bizim sinifdən 3 və ya 4 nəfəri VII sinifdə oxuyanda tibbi komissiyaya apardılar. Sinifdə iki oğlan var idi ki, onların hər ikisi bizdən böyük idi. Onların çağırılmasını anladım, amma digər uşaqları çağırmamaları və xüsusən məni də onlara qatıb aparmalarının səbəbini bilmədim. Onlar 1953-cü il təvəllüdlü idilər, mən isə 1954. Sonrakı il məni 1954- cü ildə doğulanlarla yenə çağırdılar. Orta məktəbi bitirəndən sonra elə həmin ilin payızında məni hərbi xidmətə çağırdılar və dedilər ki, filan vaxt əsgərliyə gedəcəksiniz. O vaxt bizi sıraya düzüb bu məlumatı verən Qanvoy[307] adlı praporşik idi. Mən ona dedim ki, məni apara bilməzsiniz, dedi ki, niyə, dedim mənim hələ 18 yaşım tamam deyil. İnanmadı dedi sən 1953-cü ildə doğulmusan. Dedim ki, yox. Nə isə doğum haqqında şəhadətnaməni gətirib ona göstərdim, baxdı, dedi hə get gələn il gələrsən. Bu ikili təvəllüd məni həmişə düşündürərdi. Nəhayət bunun cavabını 2003-cü ildə təxminən 45 il sonra öyrəndim.

O vaxt biz Zəngilan rayon mərkəzi xəstəxanasında baş həkim Sultan Vəliyevin kabinetinin qarşısında onu gözləyirdik. Bir azdan həkim gəldi. O vaxt mənim sinif yoldaşlarım Sabir[308], Faiq[309], Nadir[310] idi. Həkim gələndə onlar həkimlə salamlaşdılar, həkim də onların kefini soruşdu. Ötən illərdi, həkim hətta deyəsən nə isə zarafat da elədi, hamımız gülüşdük. O zaman mən sinif yolaşlarım olan o uşaqlara həsəd apardım. Fikirləşirdim ki, görəsən həkim məni də elə dindirərmi, mənimlə də elə səmimi danışarmı? Fikrimdə qəti əmin idim ki, bu adam mənm kimilərlə belə gülərüzlə danışmaz. Amma, mən haradasa 40 il sonra bu düşüncəmin yanlış olduğunu yəqin etdim. Bu barədə sonra.

## 3-cü görüş.

Sultan həkimlə yaxından üçüncü görüşüm 25 sentyabr 1970-ci ildə oldu. O vaxt mən 25 sentyabr doğumlu idim, sonralar bunun səhv olduğunu öyrəndim. Həmin gün Sultan həkim məni kor bağırsaqdan əməlliyat elədi. Məni haradasa 3 və ya dörd gün saxladı, əməliyyat eləmirdi. Mən o zaman elə qorxurdum ki. Həkimdən isə xəbər çıxmırdı. O zaman Adil[311] adlı biri var idi, axşamlar xəstəxananın həyətindəki şüşəbənddə işləyirdi. Onu da həkim hesab edirdim. Özüm həkimə yanaşmaqdan çəkinirdim. Bir,iki dəfə Adilə dedim ki, o, məni niyə kəsmir. Dedi, özün niyə soruşmursan.

Nə isə 25 sentyabrda, köhnə ad günümdə həkim məni cərrahiyə stoluna çıxartdı. Əməliyyat haradasa 45 dəqiqə sürdü. Həkimə Səltənət Mehrəliyeva və tibb bacısı Raya xanım (kitab mağazasında işləyən Bəhramın yoldaşı)[312] yardım edirdi.

Sonra məni palataya yerləşdirdilər. Həg gün səhər və axşam gəlib baxardı. Bir dəfə dedim ki, boğazım ağrıyır. Tez oradakılara tapşırdı mənə su qarışıq dərman verdilər.

Anam yanımda qalırdı, amma həkim gələndə onu palatadan çıxarardılar. Xəstə yanında qalmağa həkim (bəlkə də təlimat ) icazə vermirdi. Həkimə dedim ki, icazə ver anam bu gecə yanımda qalsın, dedi olmaz, sənə  burada anan baxan kimi, ondan da yaxşı baxacaqlar.

Amma, yenə də o, gedəndən sonra tibb bacıları heyəti şərait yaratdı o, ilk gecə yanımda qaldı. Yazıq, səhərə kimi stulda oturulu qaldı.

## 4-cü görüş.

Əvvəl qeyd etdim ki, qarın nahiyəmdə isə var idi. Hərdən məni incidərdi. 1972- ci ildə yenə ağrıdı. Mən yenə də həkimə nə

isə deməyə cürət eləmirdim, deyirdim ki, məni dinləməz. O vaxt mən Rayon İstehlak Cəımiyyətində fəhlə işləyirdim. Mən tara (işlənmiş kisə, şüşə qablar və s.) anbarının fəhləsi, Atlıxan Fərəcov isə anbardar idi. Ona dedim ki, məni həkimə tapşır, mənə baxsın. Haradasa 15 il əvvəl bir dəfə baxıb.

İki gün sonra rəhmətlik Atlıxan dedi ki, dedim, deyir gəlsin baxım. Səhərisi getdim, qapını döyüb içəri girib salam verib, kabinetinə daxil oldum. Dedi ki, gəl yaxınlaş. Sonra sorusdu ki, Atlıxanı haradan tanıyırsan? dedim ki, bir yerdə işləyirik.

Nə isə baxdı, dedi, qorxma bir şey yoxdu. Bu mənim həkimlə rayonda son görüşüm oldu. Əsgər getdim sonra da Bakıda qalıb işlədim və axşamlar da oxudum.

## 5- ci görüş.

Sovet hökuməti dövründə bir təhkimçilik deyilən yazılmayan qanun var idi. Rayon rəhbərliyi, eləcə də idarə-müəssisə rəhbərləri və məsul işçilər də kolxoz və sovxozlara təhkim edilər, onların işinə nəzarət edərdilər.

Haradasa, 1987- ci il idi. Rayonun bütün aktivlərini, eləcə də kiçik məmurları (mən də onlardan idim) Rayon partiya komitəsinin akt zalına çağırımışdılar. Burada raykomun kənd təsərrüfatına baxan katibi Musa Allahverdiyev[313] bu barədə məlumat verirdi.

Rayonun ən böyük və eyni zamanda qabaqcıl kolxozlarından biri «Kommuna»[314] kolxozu idi. Kolxoza bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, Lenin ordenli Allahverdi Allahverdiyev[315] rəhbərlik edirdi.

Həmin kolxoza Sultan həkim baş təhkimçi təyin edilmişdi. Bundan əlavə məni də həmin kolxoza təhkim elədilər. Katib bildirdi ki, nəqliyyatı olmayanları maşını olan baş təhkimçilər özləri ilə aparsınlar.

İclasın sonunda binanın çıxışında dayanıb həm həkimi gör-

mək, həm də ki, məsləhət almaq istəyirdim. Həkim məni görəndə dedi:

-Necə gedəcəksən. Mən xəstəxanada işlərimi həll edim, birlikdə gedərik.

Dedim ki, həkim sizin işiniz üzüm toplatdırmaq deyil ki. Sizin mühüm işləriniz var. Siz üzüm toplatdıracaqsınızsa bizə kim baxacaq. Güldü. Narahat olmayın mən tezdəndən özüm gedəcəyəm. Siz nə vaxt olsa gələrsiniz. Mən hər gün vaxtında orada olacağam, dedim.

Səhərisi mən tezdəndən stansiyaya, Zəngilan-Mincivan yoluna enib oradan yolüstü maşınla lazım olan yerə getdim.

«Komuuna» kolxozuna əsasən Mincivan qəsəbəsinin işçi və qulluqçuları köməyə gəlirdi. Ən böyük kollektiv isə Mincivan qovşaq Dəmiryolu xəstəxanası idi. Elə oldu ki, mən ora çatar-çatmaz Sultan həkim də gəldi. Artıq köməyə gələnlər verdrələri üzümlə doldurub maşına boşaldırdılar. Sultan həkm oradakı həkimlərlə görüşdü, məni də təqdim elədi. Həkim bir qədər qalıb işlə maqarlandıqdan və məlumat aldıqdan sonra gedəndə dedim:

-Həkim mən buradayam arxayın olun.

Həkim gedəndən sonra iş öz ahəngi ilə davam elədi. Haradasa, bir aya yaxın oraya getdim, amma bir dəfə də olsa həkimi narahat eləməmək üçün onun maşınına minmədim. Bu müddətdə mən də «həkim» oldum. Yəni həm həkimlə getdiyimə, həm də ki, xəstəxana kollektivi ilə birlikdə olduğuma görə, məni tanımayanlar mənə də «həkim» deyə müraciət edirdilər. Mən dəfələrlə, həkim deyiləm, desəm də, heç bir xeyri olmadı.

Ali məktəbdə tələbələr altı ilə həkim olurlar. Mən isə bir aya «həkim» oldum.

## 6-cı görüş.

Bu, haradasa, 1995 və yaxud da 1996- cı ildə oldu. O vaxt həkim Yasamal rayonundakı 19 saylı poliklinikada işləyirdi.

Son illərdə nədənsə kor bağırsaqdan əməliyyat olduğum yer ağrıyırdı. O vaxt mən Mərdəkan[316] qəsəbəsində qalır və bağ evlərində müxtəlif işlər, xususən də divar hörərdim. Mişar daşları da ki, bəzən çox ağır olardı. O səbəbdən ağrı verirdi.

Bir gün getdim poliklinikaya. Salam verib kefini soruşdum. Mənə ağır gəldi. Bir vaxtlar ətrafında 200, bəlkə də 300 adam fırlanan Sultan həkim indi kiçik bir otaqda oturmuşdu.

O da mənim kefimi soruşdu. Sonra dedi ki, nə olub. Dedim həkim kor bağırsaqdan haradasa 25 il əvvəl əməliyyat olmuşam. İndi, hərdən bir sancır.

Mənə baxdı sonra dedi ki, elə bir şey yoxdu. Bir az sonra soruşdu ki, kəsiblər. Dedim nəyi

Dedi ki,- kor bağırsağı. Sual mənə qəribə gəldi.

Dedim,- həkim görmürsünüz yerini.

Dedi, - onu görürəm, içəridən necə, kəsiblər ya yox.

Bu söz mənə qəribə gəlsə də tez onu anladım. Son illərdə bir neçə xəstənin qarın nahiyəsində qayçı, əlavə tibbi ləvazimatı qaldığını eşitmişdim. Hətta deyirdilər ki, bəzi həkimlər üsdən kəssələr, də içəridən əməliyyat eləmirlər.

Dedim- həkim kəsmisiniz?

Əvvəl o,da anlamadı. Dedi, nəyi.

Dedim,- içəridən kəsmisiniz?. Duruxdu.

Dedim, -həkim məni siz 1970-ci ildə əməliyyat eləmisiniz, kəsmisiniz ya yox, sizdən soruşmaq lazımdır.

Həkimin dodaqları qaçdı gülümsədi və dedi.?:

-Get heç nəyin yoxdu.

# 7-cı görüş.

1997-ci ildə mən bir tanışımın [317] təşəbbüsü ilə Qarabağ müharibəsində[318] yaralanan və əlil olan əsgərlərimizin dərd-səri ilə maraqlandım və onlar haqqında bir kitab yazdım. O illərdə deyirdilər ki, zəngilanlılar vurşmadı, torpağı qoyub qaçdılar. Mən də istədim deyəm ki, əgər biz vuruşmadıqsa bu qədər şəhidi niyə verdik. Üstəgəl də, bu qədər yaralımız, əlilimiz var.

Bu kitab barədə hətta Zəngilan jurnalistikasının banisi, Mürsəl Qocayev də «İki sahil»[319] qəzetində bir yazı vermişdi.

Bu işdən sonra ağlıma belə bir fikir gəldi ki, Zəngilanın tanınan adamlarını axtarıb tapacağam. Hələ orta məktəbdə oxuyanda belə kitab görmüşdüm.

Gəncə[320] və Gəncəlilər.

Bu ağlıma batdı və dedim ki, mən də Zəngilan və Zəngilanlılar adlı bir kitab yazacağam.

Haradan başlayacağımı bilmirdim. İlk ağlıma gələn Ziyad Təhməzov və Sultan həkim oldu. Bilirdim ki, bunların birinin elmi,’o birinin isə fəxri adı var. Ziyad Təhməzov barədə fikirimi Eldar həkimə deyəndə müsbət qarşıladı və dedi ki, sənə nə lazımsa, mən təşkil edərəm.

Qaldı Sültan həkimin məsələsi ki, onun da yerini bilirdim. Mərdəkan qəsəbəsindən xüusi olaraq onun üçün gəldim Yasamala. Getdim poliklinikaya. Görən kimi soruşdu:

-Yenə nə olub

Dedim, həkim bu dəfə heç nə. Bu dəfə mən, sizin işinizə baxacağam. Həkim sual dolu nəzərlərlə mənə baxdı.

Məsələni ona dedim.

Dedi ki, yox e, mən nə eləmişəm ki, olmaz.

Mən də sözü döndərmədim, çıxıb getdim, amma inadım inaddı. Sonralar haradasa 4 və ya 5 dəfə gəlsəm də, həkimdən razılıq ala bilmədim. Axırıncı dəfə dedim ki, həkim siz mənə məlumat

versəniz də, verməsəniz də mən oradan-buradan öyrənib bir yazı yazacağam. Onda ola bilər ki, nəyi isə düz yazmaram, təhrif olar, xoşunuza gəlməz.

Həkim baxdı ki, başqa çarə yoxdu dedi, yaxşı, bu həftə bir məlumat və şəkil hazırlaram.

## 8-ci görüş

Növbəti həftə gedib şəkli və yazını aldım. Baxdım ki, bu il 2000- ci ildə Sultan həkimin 75 yaşı tamam olur. Mən kitabın hazırlanmasını gözləməyib onu bir qəzetdə dərc etməyi qərara aldım. Bunu, «Qanun keşiyində»[321] qəzetində çap elətdirdim. Mən bu barədə İcra hakimiyyətində dedim ki, bu il həkimin 75 illik yubileyidi. Mənim bu məlumatımdan sonra İcra hakimiyəti hərəkətə keçdi və həkimin yubileyini keçirtmək qərarına gəldi.

Bir gün Azərbaycan Neft Akademiyasının Tələbə şəhərciyinin yataqxanasındakı iş otağında olarkən eşitdim ki, kimsə koridorda həkimin yubileyindən danışır. Çölə çıxanda həmin adamı gördüm hansı ki, mən İcrada ona bu barədə məlumat vermişdim. O, bəzi yoldaşları tədbirə dəvət eləyirdi. Mən də ondan soruşdum ki, mən də gələ bilərəmmi? O, da cavabında dedi ki, yerin pulunu versən, gələ bilərsən. Dedim ki, həkimə hər şey qurbandı, nə lazımdı. O deyən məbləği verib adımı siyahıya yazdırdım.

## 9-cu görüş

Tədbir Xətai metro[322] stansiyasının yaxınlığında, bir kiçik restoranda keçiriləcəkdi. Deyilən vaxtda ora yollandım. Baxdım ki, həyətdə xeyli adam dayanıb. Onların hamısını demək olar ki, tanıyırdım. Yaxınlaşanda gördüm ki, Mürsəl Qocayev qapının ağzında stulda oturub, qalanlar ayaq üstədilər və bəyi gözləyirlər.

Giriş qapısına yaxınlaşanda Mürsəl müəllim məni görəndə dedi:

-Yaxına gəl

Mən bir az da yaxınlaşdım. Məqsədim o idi ki, bir az aralıda durub həkimin gəlməsini gözləyim və eyni zamanda, rayonun tanınan adamlarının əvvəl içəri girmələrinə mane olmayım.

Mənim dayandığımı görən Mürsəl müəllim bir də:

-Yaxına gəl, yanımda otur, indi bəy gələcək, dedi. Baxdım ki onun yanında bir boş stul da var. Onun sözünü yerə salmayıb oturdum və bir neçə dəqiqə sonra ayağa qalxdım.

Bir neçə dəqiqə sonra həkim aralıdan göründü. O, düz giriş qapısına tərəf gəlirdi. Mən bir az aralanmaq istəsəm də Mürsəl müəllim, dayan, uzaqlaşma- dedi.

Həkim yaxınlaşırdı. O yaxınlaşanda mən bir addım geri çəkildim. O əvvəl mənə tərəf əlini uzadıb dedi:

-Mən sizə minnətdaram.

Qulaqlarıma inanmadım, bu nə deyir, deyə özümə sual elədim.

Bu an özümü ələ alıb dedim:

-Elə deməyin həkim, biz hamımız sizə məinnətdarıq.

O sonra Mürsəl müəllimə əl verib görüşdü və içəri keçdik.

Əziz oxucu uçmağa qanadım yox idi. İllər boyu mən bu insana toxuna bilərəmmi, o məni də dindirərmi, o mənə Sabirə, Faiqə, Nadirə davrandığı kimi davranarmı, xöş söz deyərmi- fikri ilə yaşamışdım. Bu gün 35 minlik Zəngilan əhalisinin sağlamlığı keşiyində dayanan, bu 35 il ərzində, bəlkə də minlərlə minnətdarlıq məktubu alan biri indi mənə mninətdarlıq edirdi.

Mən həyatda ilk, özü də əvəzi olmayan mükafatımı deyimmi, fəxri adımı deyimmi, onu aldım.

## 10-cu görüş

Mənim anamın[323] bir baş ağrısı var idi. Haradasa 1963- cü ildə evimizdə bir arı pətəyi olduğunu görəndə tüstü ilə onu qovmaq, dağıtmaq istəmiş bu səbəblə də bir lopa düzəldib pətəyə yaxınlaşdırır ki, onları qovsun. Lopanı yandırıb pətəyə uzadanda arıların hamısı oradan uçub anamın başına qonur. O vaxtdan bunda bu baş ağrısı baş qaldırdı. Qaçqın gələndən sonra anam Sumqayıtda məskunlaşdı, mən isə Mərdəkan qəsəbəsində. Sonralar mən də, anam da Yasamala yığışdıq.

Həkimin burada, Yasamalda işlədiyini, onunla görüşdüyümü, ondan yazdığımı deyəndə, sanki buna bir qüvvət gəldi, sevindi. Dedi ki, sən o kişidən yazımı yazdın?. Dedim, hə. Mənə çox dua elədi və sonra dedi ki, ona de gör, gəlib mənə baxarmı?

Düzünü deyim ki, mən həkimə gəl gedək mənimlə yataqxanaya deməyə utanırdım. Anamın da ora getməyi çətin idi, bir az ağır yeriyirdi. Bir qədər düşünəndən sonra dedim yaxşı, bir həkimdən xahiş edim, görüm nə deyir.

Ümidim var idi ki, gələr, çünki həkim də Yasamalda yaşayırdı.

## 11-12-13-14-15-16—cı görüşlər.

Bir gün özümü toplayıb həkimin yanına getdim.

Məni görən kimi ayağa qalxıb bir neçə addım mənə sarı gəlib əl verib görüşdü, kefimi soruşdu. Mən də onun əhvalını soruşdum.

-Dedi xeyirdimi?

Əhvalatı ona danışdım. Dedi ki, bu gün yorğunam, filan gün işdən sonra gələrsən gedərik. Deyilən vaxtda poliklinikaya getdim.

19 saylı poliklinika İnşaatçılar merto stansiyasından 200 metr şərq tərəfdə idi. Həkimə taksi təklif eləsəm də razı olmadı. Həki-

min də yolu hər gün İnşaatçılar metro stansiyasının qarşısından keçirdi.

O zaman Sultan həkim Həkimləri Təkmilləşdirmə İnstututunun Yasamal rayonu ATS deyilən ərazisində yerləşən yataqxanasında yaşayırdı. Bir rayonun 35 il baş həkimi olan birinin evi yox idi. Onun yerinə kim olsaydı Bakıda bir yox, bir neçə ev alardı, elə Mürsəl Qocayev də həmçinin.

Oradan avtobusa minib Kaktus[324] adlı restoranın yanında düşüb haradasa 300 metr yürüyüb mənim yaşadığım yataqxanaya gəldik. Üzr istəyirəm, həkim içəri gürən kimi bir təhər oldu, hara gəldiyini bilmək istəyirdi. Mən onu anladım. O haradasa mənim yaşadığım yeri normal bir otaq kimi düşünürdü, bəlkə. Oxucudan üzr itsəyiərm. Qaldığım yataqxanadakı otaq 3x5 metr bir ölçüdə idi. Burada 5 nəfər yaşayırdıq. Bir giriş qapısı, yanında da kiçik bir pəncərəsi var idi. Otağın qabağında da bir mətbəx tikdiyimdən, demək olar ki, içəriyə günəş işığı deyilən şey düşməzdi. İçəridə daima 150 voltluq lampa yandırardıq. Çoxumuzun gözü bu gur işıqdan zəifləmişdi. Nəmişlikdən isə hamımızın barmaqlarında kiçik yumru, ziyilə bənzər şeylər əmələ gəlmişdi.

Nə isə, həkim anamın halını soruşanda o:

-Həkim başına dönüm, xoş gəlmisən, dedi. Sonra- ölürəm- həkim deyə sızıldadı..

Sultan həkim onun qan təzyiqini ölçdü. Sonra da biləyindən tutub nəbzini də yoxladı və :

-Haran ağrıyır, hansı dərmanlardan atırsan, dedi

Anam da, başına dönüm, hər yerim ağrıyır.

Sonra anam qəbul etdiyi dərmanları saymağa başlayanda həkim sual dolu nəzərlərlə onu dinlədi, və:

-Sən bunları haradan tanıyırsan, deyə soruşanda, anam

-Başına dönüm ay doxtur, mən illərlə bunları ataram.

Sonra həkim ona ürək-dirək verdi və nə isə bir dərman da yazdı.

Mən həkimi dayanacağa kimi yola salıb, yenə taksi təklif eləsəm də, razılıq vermədi və dedi:

-Ona yaxşı baxın, qənimət adamdı. Elə bir şey yoxdu, sadəcə özünü təmkinli, sakit və rahat hiss eləsə, keçib gedər.

Yataqxanaya qayıdanda yolda aptekçi Balacadan (o ixtisasca sürücü idi) [325] da dərmanı aldım. İçəri girən kimi anam dedi ki, ay bala, o gedəndən sonra sanki sağaldım. Onun gəlişi elə bil ki, məni sağaltdı.

Hə, əziz oxucu, onun gəlişi də, bir sözü də, xəstəyə şəfa idi.

Haradasa 5 və ya 6 dəfə onu anamın yanına apardım.

Sultan Vəliyevin qədir-qiyməti bilinməlidir. Burada bir haşiyəyə çıxacağam. 1999- cu ildə Bakı şəhərində, Yasamal rayonu ərazisində yataqxanada yaşayırdıq. Bir gün bizim uşaqlardan Kamal dedi ki, sağ böyrüm ağrıyır. O vaxt orada əslən Çöpədərədən olan, vaxtı ilə Mincivan xəstəxanasında işləmiş həkim Təhməz Quliyev[326] də yaşayırdı. Gedib ona bu barədə dedim. Bizə gəldi və baxdı, soruşdu ki, ürəyi qalxırmı? Dedik hə, o, da dedi çox güman ki, kor bağırsaqdı. Onun məsləhəti ilə taksi çağırıb Xətai rayonundakı Əfəndiyev[327] adına (keçmişdə adı batmış Şaumyanın adına idi[328]) xəstəxanaya yoxlamaya getdik.

Təhməz həkim də bizimlə gəldi. Haradasa, gecə saat bir olardı. Xəstəxanaya çatdıq yoxladılar və dedilər ki, korbağırsaqdı, gərək əməliyyat ola. Dedim ki, yaxşı, eləyin. Orada haradasa 3 və 4 tibb personal heyəti var idi. Onlardan biri dedi ki, gərək 300 dollar verəsiniz. Dedim, yaxşı siz uşağın vəziyyətini görürsünüz, işinizi görün, mən sabah pulu tapıb gətirərəm. Dedilər ki, yox, gərək indi verəsən. Dedim axı indi saat 01.30-du, mənim də üstümdə o qədər pulum yoxdu.

Sözü çevirsək də xeyri olmadı, dediklərindən dönmədilər. Naəlac qalıb dedim:

-Sizdə telefon varmı, mən bir yerə zəng edim.

Onlar mənim pul axtaracağımı düşünüb baş həkimin kabinetinin qapısını açdılar. Mən oradan bir qohumuma zəng elədim. Onların əslən Nüvədili olan bir həkim tanışları var idi.

Mən həmin adama vəziyyəti dedim. Həmin həkimi soruşdum. O da onun telefonunu mənə verdi və ona zəng elədim. Ona vəziyyəti izah elədim. Dedi ki, yaxşı gəlin ora (M.Nağıyev adına xəstəxanaya) mən də gəlirəm. Bunu eşidən tibb personalı gəlib telefonun tutacağını mənim əlimdən alıb, məni də çölə saldılar.

Yaxşı ki, taksini saxlamışdıq. Oradan taksi ilə gəldik M.Nağıyev adına xəstəxanaya. Saat haradasa 03. 30 oldu.

Bundan sonra taksi sürücüsünə və Təhməz həkimə üzrxahlıq eləyib onları yola saldım. Taksi sürücüsünə dedim ki, qardaş sabah nə desən verəcəyəm. O, da bir söz deməyib getdi. Səhərisi onu razı saldım.

Burada içəri girib oradakılara vəziyyəti dedik. Bizi palataya yerləşdirdilər. Saat 5.00- də həkim gəldi. Allahın və yerdə də yaxşıların hesabına əməliyyat uğurla keçdi. Səhər saat 6.00- da qurtardı, uşağı palataya aldılar.

Həkimin adı Telman idi. Dedim, həkim sizinlə gəlib görüşəcəyəm. O, da narahat olma dedi. Bir neçə gündən sonra gedib həkimə gücüm çatanı verdim. Heç nə demədi.

Əziz oxucu, Sultan həkim heç zaman kimsəyə qiymət demədi. Mən əminlikdə bunu deyirəm. Bizim ailədə hamımız kor bağırsaqdan əməliyyat olmuşuq. Anam xaric (anamı Mincivan xəstəxanasında Nailə həkim əməliyyat eləyib) atam, üç bacım və qardaşım əməlliyyat olmuşdu. Sonralar mənim üzr istəyirəm, üç uşağım da (Bakı da ) əməliyyat oldular. Biz nəsillikcə korbağırsaqdan əməliyyat olmuşuq. Ailədən isə Sultan həkimin əməliyyat elədiyi ilk şəxs mənəm.

Sultan həkimin gərək dəyərini, qiymətini verək. Biz zngilanlılar ona borcluyuq və minnətdarıq. Kaş, belələrindən çox ola.

**Son olaraq.** 2006- cı ildən sonra mən bu alicənab, xöş sifətli insanla bir daha görüşmədim. Amma onun o çöhrəsi həmişə mənim gözümün önündə idi. Allah ona rəhmət eləsin.

Onu ilk dəfə gördüyümdən düz 60 il sonra onun haqqında yazdığım yazıya 60 il sonra nöqtə qoydum. **01.01.2021.**

## Sultan həkimin davamçıları

### Babayev Eldar Nəriman oğlu

*rayon mərkəzi xəstəxanasının baş həkimi*



Babayev Eldar Nəriman oğlu 1950-ci ildə Pirçivan kəndində (indiki Zəngilan şəhəri) anadan olmuşdur. 1957-1967-ci illərdə qəsəbə orta məktəbində oxumuşdur. Orta məktəbi bitirəndən sonra Azərbaycan Tibb İnstitutuna daxil olan Eldar Babayev 1973-cü ildə oranı bitirib. Rayona gələndən sonra Gilətağ kənd xəstəxanasının baş həkimi kimi əmək fəaliyyətinə başlayıb. 1989-cu ildə rayon Mərkəzi xəstəxanasının baş həkimi seçilən Eldar Babayev 2015-ci ilə kimi bu vəzifədə işləmişdir.

Babayev Eldar Nəriman oğlu 2021-ci ilin aprel ayında dünyasını dəyişib. Allah rəhmət eləsin. Ailəlidir.

-atası Babayev Nəriman

-anası Təhməzova  Minara Murad qızıdır.

-həyat yoldaşı Təhməzova Nuridə Ziyad qızıdır.  Onların iki qızı, bir oğlu var.

# Salmanov Tariyel Ayaz oğlu



Salmanov Tariyel Ayaz oğlu 05 avqust 1955-ci ildə Zəngilan rayonu Şayıflı kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1973-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə profilaktika fakultəsinə daxil olmuş, 1979-cu ildə həmin institutu müalicə işi ixtisası üzrə bitirmişdir. 1979-1980-cı illərdə Bakı şəhəri 14 saylı Tibb Sanitar hissəsində terapevt həkim işləmiş, 1980-cı ildə Zəngilan rayon Şayıflı sahə xəstəxanasına həkim terapevt və həm də Zəngilan MRX-nın Təcili Tibbi Yardım sahəsinə həkim təyin olunmuşdur. 1988-cı ildə Şayıflı sahə xəstəxanasının baş həkimi təyin olunmuş, 1993-1997-ci illərdə Zəngilan rayonu uzrə həkim əmək ekspert komissiyasının sədri işləmişdir. 1997-ci ildə Zəngilan Mərkəzi Rayon Xəstəxanası poliklinika şöbəsində həkim terapevt işləmiş, 05 iyun 2015-ci il tarixdən isə Zəngilan Mərkəzi Rayon Xəstəxanasının baş həkimi vəzifəsində işləyir.

-yoldaşı Hacıyeva Gülnarə Yadulla qızıdır. Onların iki oğlu və iki qızı var.

-qızı Salmanova Təhminə Tariyel qızı-12.06.1986-ci ildə anadan olub.

-oğlu Salmanov Ayaz Tariyel oğlu -06.07.1987-ci ildə anadan olub.

-oğlu Salmanov Orxan Tariyel oğlu-21.06.1989-cu ildə anadan olub.

-qızı Salmanova Türkan Tariyel qızı-21.06.1989-cu ildə anadan olub.

# Həsənov Muxtar Cəfər oğlu

*İlk Təcili Tibb Yardım maşını sürücüsü*



Həsənov Muxtar Cəfər oğlu 1930-cu ildə Sobu kəndində anadan olub. Atasını erkən itirən Muxtar Həsənov anası Pəri ilə birlikdə Zəngilan qəsəbəsinə köçüb. Sürücülük kursunu bitirəndən sonra ilk illərdə Zəngilan rayon xəstəxanasında işləyib. Əldə etdiyim məlumata görə Muxtar dayı rayonumuzda ilk olaraq təcili tibb Yardım maşının işlədib. O illərdəki təcili tibb yardım Maşını QAZ- 51 Markalı olub. Sonralar Muxtar dayı uzun müddət Kommunal Müəssisələri Kombinatında sürücü işləmişdir.

P.S.Muxtar dayı sobulular arasında ilk sürücülərdən sayılır. Şəhərimizdə yaşayan sobulu ailələr yayda uşaqlarını kəndə apardılar ki, orada dincəlsin.

O vaxtlar nəqliyyat az olduğundan gediş-gəliş çətin idi. Muxtar dayı da anasını yayda kəndə aparıb qoyar, hər həftənin sonunda isə onu yoluxmağa gedərdi. Bu, təxminən 60-cı illərə aid olan söhbətdir. Mənim də nənəm yay ayları heyvanlarımızla bərabər kəndə gedər, orada qalardı.

Anam da hər həftənin sonunda məni nənəmi yoluxmağa göndərədi. Həftənin V günü anam deyərdi:

-Get gör Muxtar dayın bu həftə kəndə gedəcəkmi?

Deyəcəyim odur ki, Muxtar dayı bir dəfə də olsa bizi tərgidib getməzdi. Bəzən elə olardı ki (o vaxtlar Muxtar dayı sistern sürürdü) maşının üstünə 15-20 nəfər mindirərdi. O kimsənin xət-

rinə dəyməzdi. Elini, yurdunu sevən insanlardan idi Muxtar dayı. Belələrinə az rast gəlirsən.

Məni nə zaman görsəydi deyərdi:

-Oxu elimizin, kəndimizin problemləri, dərd-səri ilə məşğul ol.

Bildiyiniz kimi biz sobululara Sovet höküməti Qolubnitski üsyanına görə vəzifə vermirdi. Muxtar Cəfər oğlu Həsənov 30 avqust 2008- ci ildə Bakı şəhərində vəfat etrmişdir.

## Vaxtı ilə Zəngilan rayon MX-da işləmiş həkimlər

1. Ağayev Bünyad Musa o.Alıbəyli Kənd Xəstəxanası, Baş həkim
2. Aslanova Göyçək Qara q. - terapevt (1985)
3. Atayeva Xanım Səmyəddin q. - endokrinoloq (2007)
4. Babayev Eldar Nəriman o. - Vənətli Kənd Xəstəxanası, Baş həkim (1976)
5. Babayev Elxan Cavanşir o. - terapevt (1971)
6. Babayev Tofiq Əbdül o. - pediatr (1972-1997)
7. Babayeva Səyyarə Nəriman q. - mama-ginekoloq (1981)
8. Bağırov Tofiq Allahulu o. - Gilətağ Kənd Xəstəxanası, Baş həkim (1969)
9. Bağırova Fəridə Əbülfət q. - mama-ginekoloq (1974)
10. Bağırova Nəzakət Şamı q. - terapevt (1985)
11. Behbudov Tapdıq - Məmmədbəyli Kənd Xəstəxanası, Baş həkim (1953-1962)
12. Cəbrayılov Cəbrayıl Abbas o. - stomatoloq (1959-2004)
13. Cəfərov Alı Mrzəxan o. - fiziatr (1958-2001)
14. Cəfərov Aydın A. - terapevt (1966)
15. Cəfərov Nüşrəvan Məmiş o. - terapevt (1963)
16. Əbilova Nazilə Seyfulla q. - pediatr (1982)
17. Əfəndiyev Nəriman İsa o. - cərrah (1984)

18. Əhmədov Səttar Qüdrət o. - cərrah (1982)
19. Əhmədova İradə Qüdrət q. - pediatr (1982)
20. Əhmədova Nəzakət Əhməd q. - mama-ginekoloq (1974)
21. Ələkbərova Kəsirə Əhəd q. - ginekoloq (1969)
22. Əlihüseyn - pediatr
23. Əliyev Əli İslam o. - terapevt (1969)
24. Əliyev İbrahim Fərrux o. - rentgenoloq (1989)
25. Əliyev Səfər Məmmədqulu o. - Alıbəyli Kənd Xəstəxanası, Baş həkim
26. Əliyev Sucəddin Məhyəddin o. - terapevt (1987)
27. Əliyev Ümüd Əli o. - terapevt (1988)
28. Əliyeva Raya Əliyar q. - terapevt (1987)
29. Əliyeva Tahirə İbrahim q. - həkim-laborant (1989)
30. Əliyeva Zərifə Behbud q. - həkim pediatr (1952)
31. Əsgərov Nadir Allahverdi o. - nevropatoloq (1978)
32. Əzizov Muxtar Haqverdi o. - pediatr (1972)
33. Əzizova Yasəmən Haqverdi q. - mama- ginekoloq (1993)
34. Fərəcova Aidə Əkbər q. - pediatr (1978)
35. Hacıyeva Şərqiyə Hacıbaba q. - Məmmədbəyli Kənd Xəstəxanası, Baş həkim (1963)
36. Hacıyeva Zemfira Həşim q. - mama-ginekoloq (1968)
37. Heydərova Bənövşə Yusif q. - terapevt (2001)
38. Həsənəliyev Haqverdi Hüseynalı o. - terapevt (1982)
39. Həsənov Altay Səhyəddin o. - kardioloq (2009)
40. Həsənov Səhyəddin Niftalı o. - kardioloq (1972)
41. Həsənov Telman Davud o. - cərrah (1974)
42. Həsənova Əfruz Davud q. - pediatr (1970)
43. Həsənova Nüşabə - terapevt (1974)
44. Həsənova Rita Xudabaxış q. - pediatr (1987)
45. Həsənova Sədaqət Bağır q. - pediatr (1980)
46. Həsənova Tahirə Lətif q. - oftalmoloq (1955-1995)
47. Həsənova Tamilla Əbdüləli q. - pediatr (1981)

48. Hüseynov İqrar Murtuza o. - terapevt (1978)
49. Hüseynov Qaçay Səməd o. - pediatr (1967)
50. Hüseynov- Səhiyyə şöbəsinin müdiri (1941)
